**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# FƏLSƏFƏDƏ HÜQUQ VƏ ƏXLAQ ARASINDA OXŞAR VƏ FƏRQLİ ASPEKTLƏR

| | |
|---|---|
| İxtisas: | 7212.01 – Etika |
| Elm sahəsi: | Fəlsəfə |
| İddiaçı: | **Əntiqə Niftiəli qızı Paşayeva** |

Elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun "Etika" şöbəsində yerinə yetirilmişdir.

Elmi məsləhətçi: Fəlsəfə elmləri doktoru, professor
**İlham Ramiz oğlu Məmmədzadə**

Rəsmi opponentlər: AMEA müxbir üzvü
Fəlsəfə elmləri doktoru, professor
**Sevda Yusif qızı Məmmədəliyeva**

Fəlsəfə elmləri doktoru, professor
**Cahangir Rza oğlu Məmmədov**

Hüquq elmləri doktoru, professor
**Xəyyam Cəbrayıl oğlu İsmayılov**

Fəlsəfə elmləri doktoru, dosent
**Vilayət İsmayıl oğlu İsmayılov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən BED 1.33 Birdəfəlik Dissertasiya şurası.

Dissertasiya şurasının
sədri: ________________ fəlsəfə elmləri doktoru, professor
**İlham Ramiz oğlu Məmmədzadə**

Dissertasiya şurasının
elmi katibi: ________________ fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Anar Qabil oğlu Qafarov**

Elmi seminarın
sədri: ________________ Əməkdar elm xadimi
fəlsəfə elmləri doktoru
**Rəfiqə Cəlil qızı Əzimova**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Qərb fəlsəfəsinin əsas təlimlərindən biri “Hüququn fəlsəfəsi”dir. Bu elmin yaradıcıları olan qərb filosoflarının hüquq barədə müxtəlif nəzəriyyələri olsa da, hər birinin irəli sürdüyü ideyalar hüququn fəlsəfəsinin əsas mövzuları hesab olunur. Amma hüquqla bağlı düşüncələr yeni deyil, bu, hüququn özü qədər qədim tarixə malikdir. Fəlsəfə tarixinə nəzər salsaq görərik ki, insanlar hüququ müqəddəs bir əməl kimi tanımaqla yanaşı onun qayda və qanunlarını ilahi bir əmr adlandırmışlar. İlahi qanunlar sabit və dəyişmədiyi üçün hüquq və qanunlar da sabit və dəyişməzdir; heç kəsə ixtiyar verilmirdi müqəddəs qanunlara xələl gətirsin. Lakin zaman keçdikcə, dövr dəyişdikcə yaranan müxtəlif mədəniyyətlərin nəticəsində hüquq tədricən ilahi rəngini itirərək ictimai xarakter aldı. Belə bir şəraitdə hüquq qərb mədəniyyətinin ən mühüm vasitəsi hesab olunurdu və qərb mütəfəkkirləri belə qərara gəldilər ki, hüququn fəlsəfəsini yazsınlar və bunu öz istək və tələblərinə uyğun olaraq şərh etsinlər; onların əsas məqsədi hüququn mahiyyətini, xüsusiyyətini, hüquqi quruluşları, hüquq və etika, etika və qanun, hüquq və ədalət, hüquq və insaf, vicdan, adət-ənənə, azadlıq, bərabərlik və digər mühüm məsələləri araşdırsınlar. Bu nüfuzlu elm hazırkı dövrümüzdə təkcə qərbdə deyil, şərq filosof və hüquqşünas filosoflarının da əsas diqqət etdiyi mövzudur ki, köklü şəkildə araşdırılır. Filosoflar hüququn mahiyyətini, prinsiplərini, o cümlədən qanun nəzəriyyəsini fəlsəfi prizmadan təhlil edərək bu elmin hansı şöbələrdən ibarət olduğunu, quruluşuna görə neçə hissəyə ayrıldığını, onun üstün cəhətlərini və ictimaiyyət üçün nə qədər vacib və zəruri olduğunu məntiqi dəlillərə əsaslanaraq sübuta yetirmiş, bunların arasında oxşar və fərqli aspektləri göstərmişlər[1]. Hüququn mahiyyəti dedikdə, bu, hüquqa xas olan daxili bir qüvvədir ki, ictimaiyyəti ona tabe olmağa sövq edir, cəmiyyətə zərər verə bilən hər hansı bir ünsürdən qoruyur. Hüququn fəlsəfəsi hüquq elminin

---

[1] Katuzian, N. Ə. Hüququn fəlsəfəsi: hüququn tərifi və mahiyyəti / N. Katuzian. – Tehran: Səhmdar Cəmiyyəti, – 2009. – c.1, s. 34-35.

mövzularına istinad edir və bunlar həmin mövzulardır ki, bütün zamanlarda filosoflar və hüquqşünas filosoflar tərəfindən öyrənilməsinə səy göstərilmiş və hazırkı dövrdə də aktualdır. Hüququn fəlsəfəsi və hüquq elmi arasında olan fərqli məsələlərin olmasına baxmayaraq bunların hər ikisi insana xas olan keyfiyyət və dəyərləri göstəmək üçün vahid bir sistemdə mövcuddur, çünki hüququn fəlsəfəsi təkcə əqli (təfəkkür) məsələlərə istinad etməklə düzgün nəticəyə gələ bilməz, düzgün nəticəyə gəlmək üçün təbii ki, hüquq elminə, burada mövcud olan mövzulara istinad etmək vacibdir, həmçinin hüquq elmi də təkcə praktikaya, yəni insanın əməllərinə istinad edilərək təhlil oluna bilməz, çünki hüquq müstəqil və vasitəsiz olaraq insanın iradəsinə bağlıdır. Belə olan halda hüquq və fəlsəfə arasında əlaqə yaranır və bunların birliyi təkcə fəlsəfə və hüquqa görə deyil, burada əsas məqsəd bəşəriyyət üçün nəzərdə tutulmuş ali dəyərləri öyrənmək və həyata keçirtməkdir.

Filosoflar hüququn fəlsəfəsini yazarkən bir sıra mühüm mövzulara diqqət yönəltmişlər ki, bu mövzular mədəni, ictimai-siyasi, sosial həyatı əhatə edən məslələrdir ki, bütün dövrlərdə aktuallığını qoruyur. Bu mövzular arasında “Hüquq və Etika” əsas mövzu hesab olunur ki, digər mövzuları da özündə birləşdirir; hüququn ictimai-siyasi, sosial, mədəni fəaliyyətini biz yalnız hüquq və etikanın nisbətində müşahidə edirik. Hüquq və etik normalar hər ikisi birlikdə insana nə etməyi, necə davranmağı, qarşılıqlı ünsiyyəti öyrətməklə yanaşı bunların yollarını göstərir, haqları bizə həvalə edir, öhdəmizə düşən məsuliyyətin vacibliyini anladır və bunların yerinə yetirilməsini zəruri hesab edir. Bu normalar insana nəyi yerinə yetirib və nəyi yerinə yetirməməyi öyrədir, ictimai hüquqları müəyyənləşdirir, insana aid olan vəzifələri zəruri hesab edir və təkid edir ki, ictimaiyyətə mənsub olan hüquq və vəzifələr tanınsın, bunlara riayət olunsun; filosof çalışır ki, hüquq və etik qaydalara istinad edərək insan varlığının üstünlüklərini göstərsin. Məhz buna görə də mövzu ilə bağlı bir sıra mühüm suallarla qarşılaşırıq: hüquq nədir və insanlar hansı hüquqdan istifadə edirlər? Hüquq və etika arasında bağlılıq mümkündürmü, əgər mümkündürsə bu, hansı hallarda baş verir? Hüquq və əxlaq arasında oxşar və fərqli cəhətlər hansılardır? Təbii (ilahi) və pozitiv (bəşəri) hüquq hansı hüquqa deyilir, bunların

oxşar və fərqli cəhətləri hansılardır? Qanun nədir? Qanunlar necə yaranır və nəyə görə biz qanunlara tabe olmalıyıq? İnsan və qanun arasında hansı bağlılıqlar mövcuddur? Ümumiyyətlə, qanun olmadan ictimai fəaliyyət mümkündürmü? Nəyə görə filosoflar, moralistlər və hüquqşünas filosoflar bu mövzulara maraq göstərmişlər? Hansı səbəblərə əsasən filosoflar hüququ praktikadan ayırmamaq şərti ilə fəlsəfəyə daxil etmişlər? Məgər hüquqşünasların təhlili kifayət etmirdimi filosoflar hüququ praktikadan ayırmamaq şərti ilə dəqiq (əqli) elmlər (fəlsəfə və klassik məntiq) daxilində araşdırırlar, buna səbəb nədir? Hüquqla bağlı olan məsələlərin həlli hüquq daxilində olan qanunlardan asılıdır, bəs hüquq hansı sistemə tabedir və tətbiq etdiyi qanunlar haradan qaynaqlanır? Yaranan bu və bununla bağlı digər suallar hazırkı dövrdə aktual olduğu üçün səhih mənbələrə istinad edərək bunların cavablandırılması zəruridir. Qeyd olunan suallar hüquq və etika arasında olan bağlılıqdan qaynaqlandığı üçün bunların cavabı da hazırkı tədqiqatda araşdırılmalıdır, çünki bu suallar ictimai həyatın bütün mərhələlərində zəruri olan məsələləri əhatə edir ki, bunların köklü şəkildə tədqiqi və təhlili indiki və gələcək dövr üçün aktual hesab olunur.

Dissertasiyanın mövzusu "Fəlsəfədə hüquq və əxlaq arasında oxşar və fərqli aspektlər"dir; əxlaq insanın iradəsi ilə bağlı olan bir qüvvədər, bu tədqiqatın mövzusu da insanın varlığı, nəfsi və əməlidir. Hüquq və etikanın bağlılığından əsas məqsəd insan varlığını kamilliyin ən yüksək mərtəbəsinə çatdırmaqdır. İnsanın kamilliyə çatmasında əxlaqın ən üstün xüsusiyyəti olan *ədalətin* xüsusi yeri vardır. Ədalət hüquqa mənsub olan qaydaları nizamlayır və onları struktura uyğun olaraq tənzimləyir. Ədalət təkcə fəzilət (virtue) deyil, ədalət həm də şəxsi və sosial hüquqları ehtiva edən ümumibəşəri prinsipdir ki, hər bir fərdin buna riayət etməsi zəruri hesab olunur. Filosoflar, xüsusilə Kant hüquq və etika arasında bağlılıqdan bəhs edərkən bunların arasında ayrılığı mümkünsüz hesab etmişdir. O, etikanı nəfslə əlaqələndirərək baş verən hər hansı yaxşı və pis əməli *"yaxşı iradə"* (good will) kimi dəyərləndirmişdir[2]. Hüquq və etikanın

[2] Paşayeva, Ə. N. Hüququn Fəlsəfəsi / Ə. Paşayeva. – Bakı: Avropa, – 2019. – s. 38.

əlaqəsi təkcə ədalətlə məhdudlaşmır, burada insaf, vicdan, adət-ənənə, bərabərlik və ictimi həyat üçün zəruri olan digər mövzular tədqiqatın əsasını təşkil edir. İctimai münasibətlərin qanunlar əsasında tənzimlənməsində ədalətlə yanaşı, insaf, vicdan və adət-ənənə əsas meyarlardır ki, birbaşa olaraq hüququn fəaliyyətinə təsir edir; daha aydın desək, insaf bütün vəziyyətlərdə tənzimləmə səlahiyyətinə malikdir; insaf vicdan əsasında qərara gəlir və qaydalar üzərində üstünlüyə malikdir; insaf, hüquq nörmaların mövcudluğunda deyil, lakin işlənməsində əsas şərt hesab olunur, çünki insafa əsaslanmayan hüquq normaları heç bir ictimai təsirə malik deyildir.

Vicdanlılıq (vicdanlı olmaq) bioloji qaydalardan daha müstəqil olaraq cəmiyyətin əxlaq qaydaları adlanan digər qaydalar formasında, sosial münasibətlərdə – dostluqda, birlikdə, həmrəylikdə, müttəfiqlikdə və etik prinsiplərin inkişafında sabitlik yaradır və təhlükəsizliyi təmin edir. Bu qaydalar fərd və cəmiyyət üçün hüquq və məhdudiyyətləri müəyyənləşdirir, qarşıdurmaların meydana gəlməsininin qarşısını alır və bu qarşıdurmaların, ixtilafların həll olunmasını təmin edir. Vicdan, birgə yaşamağı təmin etməkdən ötrü bütün cəmiyyət üzvləri üçün ortaq, müştərək dəyərlərin müəyyən hədd əsasında dərk olunmasını təmin edir ki, bunlar fərdi və sosial (ictimai, mülki) hüquq adlanır[3]. Təbii ki, qanunların tənzimlənməsində ədalət, insaf və vicdanla yanaşı *adət-ənənin* də xüsui funksiyası vardır. Nəzərə almaq lazımdır ki, qanunverici orqan yaranmazdan əvvəl adət-ənənə ictimai həyatda mövcud olmuşdur və sonradan yaranan qanunverici orqanla adət-ənənə arasında bağlılıq yaranmışdır. Hüququn mənbələrində adət-ənənənin təsirinə gəldikdə isə bu, hüquqi qaydaların yaranma mənbəyi hesab olunur. Hüquq baxımından adət və ənənə yazılmamış qaydalardır ki, ümumi, xüsusi, daimi və müstəqil olaraq insanların iradəsindən doğur və bunun yaranmasında dövlətin heç bir fəaliyyəti və rolu mövcud deyil, lakin məhkəmələrdə icra olunması üçün dövlət tərəfindən rəsmi şəkildə tanınmalıdır. Adət və ənənə qayda-qanundan başqa, məhkəmə

---

[3] Pound R. An introduction to the Philosophy of law. – New York: BiblioLife, – 2009. – pp. 22-25.

prosedurlarını, hüququn digər mənbələrini də əhatə edir, həmçinin hazırkı dövrdə də qanunlar adət və ənənəyə əsasən toplanılmışdır. Adət və ənənə vətəndaş hüququnda təsirə malikdir, çünki vətəndaş hüququ vətəndaşlıq anlayışının həyata keçirilməsinin bir funksiyasıdır.

Hüquq və əxlaq arasında oxşar və fərqli cəhətlər təkcə bunlarla bitmir, burada *əxlaq* və *qanunun* mövcudluğu da əsas şərt hesab olunur. Filosofların nəzərində qanun bütün məsələləri əhatə edən ümumi bir əmrdir, qanun digər qaydalardan fərqli olaraq bəzi meyar və üstünlüklərə malikdir, lakin insanın qanundan daha çox etik normalara ehtiyacı vardır. Etik normaların sosial hədəflərindən biri də budur ki, insanları qanuna tabe olmağa sövq edir; əxlaq normaları cəmiyyətin bütün kateqoriyalarını əhatə edən fərdi və yaradıcı bir subyektdir. Əxlaq və qanunun sosial hədəfi dedikdə isə əxlaq, fərd və cəmiyyət arasında müştərək institutlardan biri olduğu kimi qanun da fərd və cəmiyyətin ümumi cəhətlərindən biridir. Bəşər tarixinin bütün mərhələlərində əxlaq normalarına riayət etmək məsələsi fərdlərin özəl və ailə institutlarında hazırlanan bir məsələdir; əxlaq azdan çoxluğa doğru hərəkət edir, bir növ kiçik institut olan ailədən başlayır və getdikcə böyüyür. Bu, bir reallıqdır ki, ictimaiyyətin *qanuni etikaya* ehtiyacı vardır, çünki etik normalardan kənar davranış hətta başqalarına zərər vermədiyi halda belə cinayət məsuliyyətinə cəlb edilməsi zərurətini yaradır. Məhz belə bir vəziyyətdə hüquq və etikanın, əxlaq və qanunun bağlılığına ehtiyac yaranır. Hüquqşünas filosoflar iddia edirlər ki, hakimin iradəsini əks etdirən müəyyən bir hədd olmalıdır və bu hədd etik normalarla deyil, qanuni məsələlərlə bağlıdır, çünki etik normalar və qanun hər ikisi ictimai münasibətləri tənzimləyən, ortaq cəhətlərə malik olan iki mühüm sosial institutdur, ancaq buna baxmayaraq bunlar bir-birindən fərqli olaraq nəzərə alınmalıdır. Filosofların gəldiyi nəticə isə bundan ibarətdiur ki, qanunverici orqan ədalətdən kənar qanun qəbul edərsə bu, əxlaqdan kənar qanun hesab olunur və heç bir etik normalara malik deyildir. Belə olan halda qanunverici orqanın haqqı yoxdur ki, vətəndaşlardan həmin qanuna əməl etməyi tələb etsin. Çünki pozitiv qanundan əvvəl yaranan təbii qanun pozitiv qanununun məzmunuda, formalaşmasında və etibarlı (qanuni) olmasında birbaşa olaraq iştirak

edir. Qeyd olunan oxşar və fərqli fikirlərə baxmayaraq bu bir reallıqdır ki, hüquq və etika, o cümlədən əxlaq və qanun həm ictimai, həm də sosial məsələlərin həllində bir-birinə ehtiyacı vardır. Hüquq və etikanın, həmçinin hüquq və əxlaq normaların əsas hədəfi insanlığı qorumaq, ləyaqətli, etik normalara əməl edən sağlam düşüncəli insanlardan ibarət sosial cəmiyyət yaratmaqdır.

Dissertasiyada digər mühüm mövzu Xristian və İslam dinində hüquq və etik normaların qarşılıqlı əlaqəsidir. Bu normaların hər ikisi dini quruluşlarda özünü göstərir. Səmavi kitablarda dini ayinlərlə yanaşı, haqlar və etik normalara xüsusi diqqət olunmuşdur. Xristian dini yarandığı vaxtdan təbii hüquq normalarına üstünlük vermiş və bu normaların etik dəyərlərlə birlikdə olmasını önə çəkmişdir. İlahi kəlamlar təkcə əmr və qadağalardan ibarət deyil, burada müdrik kəlamlar, nəsihətlər, insana verilən dəyərlər etik normalar göstəricisidir. İslam dininə gəlincə isə İslam dini bu məsələ ilə bağlı Qurani-Kərimə və dinin əsaslandığı digər səhih mənbələrə istinad edərək geniş bəhs etmiş, müxtəlif dövrlərdən asılı olmayaraq bu normaların bütün zamanlarda qüvvədə olduğunu təkidlə bildirmişdir. Etik normalara əsaslanan islam hüquq quruluşları bir neçə hissədən ibarətdir. Bu quruluşların əsas məqsədi ictimai-siyasi sabitliyi qorumaq, birlik və əməkdaşlığa önəm vermək, insanların maariflənməsinə səy göstərmək, ayrı-seçkiliyə yol verməmək, ictimai münasibətlərdə hüquq və əxlaq normalarına riayət etməkdir[4]. Təbii ki, yaşadığımız cəmiyyət üçün önəmli olan belə mühüm mövzular müasir dövrdə də öz aktuallığını qoruyub saxlayır və gələcəkdə də araşdırılmasına zəmin yaranır. Üzərində tədqiqat apardığımız bu yeni dissertasiya mövzusu ümid edirik ki, təkcə ölkəmizdə deyil, ölkədən kənarda da bu istiqamətdə araşdırmalarda mühüm əhəmiyyət kəsb edəcək.

**Mövzunun işlənmə dərəcəsi.** Əsası qədim yunan mütəfəkkrilərinə aid olan hüquq və bununla bağlı olan mühüm mövzular, o cümlədən hüququn fəlsəfəsi, hüquq və etika, əxlaq və qanun bunların ictimai-siyasi funksiyaları Sokraıtın, Platonun və

---

[4] Abdullah Cavadi Amuli. İslamda haqq və vəzifə /A. Abdullah. – Tehran: Əsra, – 2013. – s. 210-225.

Aristotelin əsərlərində, onların təlimlərində mühüm yer tutur. Sokrat qanunların insanlar tərəfindən deyil, məhz ilahi tərəfindən bütün bəşəriyyət üçün yarandığını bildirmişdir. Platon isə təbii hüquqi əsasları mövcud aləmin kəşf olunmasında əsas meyar hesab etmişdir. Aristotelə gəldikdə isə onun fəaliyyəti daha geniş və əhatəlidir. O, nəinki hüquq və etik normaların mahiyyətindən bəhs etmiş, hətta hüquq və etikanın, əxlaq və qanunun, hüquq və ədalətin qarşılıqlı əlaqəsini, bunların bir-birinə olan nisbətini, ictimai-siyasi funksiyalarını, oxşar və fərqli cəhətlərini aydın şəkildə bəyan etmişdir. Aristotel Sokrat və Platondan fərqli olaraq hüququn mahiyyətindən daha çox xüsusiyyətlərinə diqqət etmişdir. O, özündən sonra bu mövzuları əhatə edən üç böyük əsər (Nikomaxusun əxlaqı, ing: Ethica Necomachea; Eudemosun əxlaqı, ing: Ethica Eudemia; Böyük əxlaq, ing: Magna Moralia) gələcək nəsillərə qoymuşdur ki, hüququn fəlsəfəsi, hüquq və əxlaqla bağlı tədqiqatlarda bu əsərlərə istinad etməmək mümkün deyil. Təbii ki, zaman keçdikcə, xüsusilə orta əsrlərdə bəşəriyyət üçün mühüm hesab olunan fəlsəfi, hüquqi, ictimai-siyasi və etik təlimlərə diqqət daha da artmış və müasir dövrə qədər gəlib çatmışdır.

Bu mövzular filosoflarla yanaşı moralistlərin hüquqşünasların, hüquqşünas filosofların, siyasi xadimlərin, sosioloqların, tarixçilərin hətta iqtisadçıların diqqətini cəlb etmiş, nəticədə müxtəlif və fərqli ideyalara əsaslanan çoxlu sayda dəyərli əsərlər yazaraq ictimaiyyətə təqdim etmişlər. Buna misal olaraq orta əsrlərdən başlamış yeni və müasir dövrə qədər bu sahədə tutarlı fəaliyyəti, ideyaları ilə məşhur olan bəzi tanınmış mütəfəkkir və alimlərin adlarını qeyd edirik. Bunlardan məşhur ingilis filosofu və siyasi xadimi Tomas Hobbesi[5], maarifçilik dövrünün ən təsirli mütəfəkkirlərindən, həmçinin "Liberalizmin" atası" sayılan Con Lokku[6], dahi alman filosofu,

[5] Thomas Hobbes. Leviathan. – ed. by C. B. Macpherson, Harmondsworth: Penguin Books, – 1968. – p. 202.

[6] Oakley Francis and Elliot W. Urdang. Locke, Natural Law, and God, In John Locke: Critical Assessments, Edited by Richard Ashcraft. – London and New York: Routledge Taylor & Francis Group, – 1966. – p. 64.

riyaziyyatçı, fizik və hüquqsünas, ikilik say sistemi layihəsinin müəllifi, riyazi analizin banisi Qotfrid Leybnitsi[7], məşhur alman filosofları İmmanuel Kantı[8], Georq Vilhelm Hegeli[9], Dennis Loydu[10], ingilis filosofu və iqtisadçısı Henri Sidqvikini[11], pozitiv hüquq nəzəriyyəsinin tərəfdarlarından olan Herbert Hartı[12], Amerikalı siyasi filosof və etik (moralist) Con Ravlsı[13], Amerikalı siyasi filosof və iqtisadçı Karl Viderqustu[14], həmçinin bu mövzuda türk tədqiqatçılarından hüquşünas alim Adnan Gürizi[15], Yasemin İşıktaçı[16], Hayrettin Ökcesizi[17], Yener Ünveri[18] numunə göstərmək olar.

Qeyd olunan alimlərlə yanaşı Rusiyada, İranda və ərəb ölkələrində də bu mövzuda tədqiqatlar aparılmışdır ki, onlardan bəzilərini qeyd edirik. Bunlardan rus hüquqşünası, Rusiya

---

[7] Gottfried, Wilhelm Leibniz. Leibniz: Political Writings. – Editor Patrick Riley. Cambridge University Press, – 1988. – pp. 53-57.

[8] Kant İ. The Moral Law: Logic. Kant's Groundwork of the Metaphysic of Morals. A new translation with analysis and notes by H. J. Paton. – London: Hutchinson's University Library, – 1956. – pp. 65-67.

9 Hegel, G. W. F. Philosophy of Right. – Translated with notes by T. M. Knox. London: Oxford University Press, – 1967. – pp. 43, 48.

[10] Dennis L. The idea of Law. – London: Penguin Books INC, – 1964. – p. 70.

[11] Henry Sidgwick. The Methods of Ethics. – Hackett Publishing Company; 7th edition, – 1981. – pp. 267 & 268.

[12] Hart, H. L. A. The Concept of Law. – Oxford: Clarendon Press; New York: Oxford University Press, – 1994. – pp. 8, 20, 81.

[13] John Rawls. A Theory of Justice. – Oxford: Oxford University Press, – 1999 – pp. 53 & 54.

[14] Widerquist, K. Lockean Theories of Property Justifications for Unilateral Appropriation. – Qatar: Georgetown University. Public Reason, – 2010. – p. 4.

[15] Güriz Adnan. Hukuk Felsefesi / A. Güriz. – Ankara: Siyasal Yayın Dağıtım, 2009, – s. 64.

[16] İşıktaç Yasemin. Hukuk Felsefesi / Y. İşıktaç. – İstanbul: Filiz Kitabevi, – 2006. – s. 30-33.

[17] Hayrettin Ökçesiz., Gülriz Uygur., Saim Üye. Hukuk felsefesi ve sosyolojisi arkivi. / Ö. Hayrettin, U. Gülriz, Ü. Saim – İstanbul: İstanbul Barosu yayınları, – 2014. – s. 23.

[18] Yener Ünver, Hakan Hakeri. Ceza Muhakemesi Hukuku. / H. Hakeri. Ü. Yener, H. Hakan – Ankara: Adalet yayınevi, – 2010. – s. 16.

konstitusiya hüququnun yaradıcılarından biri olan filosof, tarixçi, publisist və pedaqoq Çiçerin Barisi[19], tanınmış hüquqşünas ailim Valeri Lazarevi[20], həmçinin bu sahədə dəyərli əsərləri ilə seçilən İran alimlərindən məşhur hüquqşünas filosof, etik, ictimai-siyasi xadim Nasir Katuzianı[21], hüquşünas filosof və etik Muhəmməd Cəfər Ləngərudini[22], Seyid Muhəqqeq Damadı[23], Mustafa Daneş Pəjuhu [24] və digərlərini nümunə göstərmək olar.

Dissertasiya mövzusunun işlənməsində xarici müəlliflərlə yanaşı yerli müəlliflərin əsərlərinə də istinad olunmuşdur. Bunları qeyd etməzdən əvvəl demək istərdik ki, Azərbaycan mütəfəkkiri Abbasqulu ağa Bakıxanovun (1794-1847) "Təhzibul-əxlaq" əsərində əxlaqla bağlı müəyyən məsələlər mövcuddur, lakin hazırkı mövzu müasir dövrdə – beynəlxalq qanunvericilikdə hüquq və etikanın, hüquq və əxlaqın zəruri məsələlərini, həmçinin fəlsəfi aspektlərini əhatə etdiyi üçün bu sahədə mütəxəssis olan filosof və hüquqşünas filosofların, əxlaqşünas alimlərin (moral scientists), hüquqşünasların, sosioloqların, siyasətçilərin, tarixçilərin və iqtisadçıların əsərlərinə istinad etməyi zəruri hesab etmişik ki, bunların adları yuxarıda qeyd olunmuşdur. Ancaq yerli müəlliflərə gəldikdə isə filosoflardan Yusif Rüstəmovu[25], İlham Məmmədzadəni[26], Füzuli Qurbanovu[27],

---

[19] Чичерина, Б. Философия права / Б. Чичерина. – Москва: Русской мысли, – 1900. – с. 31.

[20] Lazarev, V. V. Ümumi hüquq və dövlət nəzəriyyəsi. Tərcümə edən: Əziz Rzabəyli / V. Lazarev. – Bakı: Qanun, – 2007. – s. 32.

[21] Katuzian, N.Ə. Əxlaq və hüquq // – Tehran: Elm və Texnologiyada etik rüblük jurnal, – 2007. – № 1, 2, s. 84-88.

[22] Ləngərudi, M. C. Hüquq elminin başlanğı / M. L. – Tehran: Gənc-e-daneş, – 2004. – s. 50.

[23] Muhəqqeq Damad, M. Din, Fəlsəfə və Qanun / M. Muhəqqeq Damad. – Tehran: Daneşqah-e Tehran, – 1999. – s. 73-75.

[24] Daneşpəju, M. İslam hüquq quruluşu /M. Daneşpəju. – Tehran: Gənc-e daneş, – 2009. – s. 2.

[25] Rüstəmov, Y. İ. Fəlsəfənin əsasları / Y. Rüstəmov. – Bakı: Elm, – 2004. – s. 455.

[26] Məmmədzadə, İ. R. Bir daha fəlsəfə haqqında / İ. Məmmədzadə. – Bakı: Elm və Təhsil, – 2020. – s. 74.

[27] Qurbanov F., Mədətli E. Bir millət-iki dövlət. Fəlsəfi-tarixi təhlil. / F. Qurbanov, E. Mədətli. – Bakı: Elm və təhsil, – 2020. – s. 41.

həmçinin hüquqşünas alimlərdən Habil Qurbanovu[28], Eldar Həsənovu[29], Aqşin Quliyevi,[30] İlham Rəhimovu[31] və digərlərin nümunə göstərmək olar.

Baxmayaraq ki, "Hüququn fəlsəfəsi" – "Hüquq və etika", "Hüquq və əxlaq", "Hüquq və məntiq", "Əxlaq və qanun", "Hüquq və vicdan, "Hüquq və insaf", "Hüquq və adət-ənənə", "Hüquq və din" və bu sahədə digər mühüm mövzular fəlsəfi, hüquqi, etik, əxlaqi, məntiqi, sosioloji aspektdə, köklü şəkildə tədqiqatdan kənarda qalmışdır, lakin 2019-cu ildə dissertasiya müəllifinin yazdığı monoqrafiyalarda (Hüququn fəlsəfəsi. Bakı: Avropa, 2019; Философия права. Ukrayna: "Sobornost" 2019) və hazırkı dissertasiya işində ətraflı tədqiq və təhlil olunmuşdur.

Qeyd olunan məsələlərlə yanaşı dissertasiyada bu sahədə daha çox tanınmış və dəyərli əsərləri olan Qərb və Şərq alimlərinin ideyalarına istinad edərək onların məqsəd və hədəfləri araşdırılımış, bəzən onların fikriləri ilə razılaşsaq da, digər tərəfdən bunlarla razılaşmayaraq daha çox öz tədqiq və təhlillərimizə yer vermişik. Burada tədqiq dedikdə, bəzən müəlliflərin ideyalarında ziddiyyətli fikirləri müşahidə etsək də bunları aradan qaldırmaq üçün həmin mövzunu köklü formada izah edərək öz yanaşmamızı təqdim etmişik və çalışmışıq ki, daha çox əsaslandığımız fikirləri göstərək. Dissertasiyada mövzunun təhlilinə gəldikdə isə burada birbaşa müəlliflərə istinad olunmamışdır; təqdim olunan dissertasiya işini ətraflı mütaliə etsək görərik ki, burada istifadə olunan bütün mənbələr təhlillər əsasında verilmişdir, yəni müəllifə istinad etməzdən əvvəl mövzu haqqında bəhs olunmuş, araşdırma aparılmış və bundan sonra həmin müəllifin fikrləri təhlillər əsasında və müqayisəli aspektdə qeyd olunmuşdur. Dissertasiya mövzusunun işlənməsində digər

[28] Qurbanov, H. S. Cəmiyyət və sosio – hüquqi problemlər / H. Qurbanov. – Bakı: Elm, – 2018. – s. 140.

[29] Həsənov E. Azərbaycanın dövlət və hüququnun əsasları / E. Həsənov. – Bakı: Azərnəşr, – 2009. – s. 55.

[30] Quliyev, A. İ. Sosioloji hüquqşünaslığın tarixi aspektləri / A. Quliyev. – Bakı: Xəzər Universiteti, – 2017. – s. 14.

[31] Rəhimov, İ. M. Din və cəza / İ. Rəhimov. – Bakı: Avropa, – 2021. – s. 171.

mühüm cəhət ondan ibarətdir ki, burada müxtəlif sahələrlə bağlı olan xüsusi terminlər vardır ki, bunların tam aydın olması üçün həmin xüsusi terminlər mötərizə daxilində ingilis, fransız, latın, bəzilərinin isə ərəb dilində tərcüməsi qeyd olunmuşdur. Bundan əlavə, tədqiqat işində elektron resurslardan da istifadə edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti fəlsəfə, etika, fəlsəfə və hüququn əxlaqi münasibətləri və qanundur. "Fəlsəfədə hüquq və əxlaq arasında oxşar və fərqli aspektlər" baxmayaraq ki, qərb fəlsəfəsinin mövzusudur, qərb fəlsəfəsi ilə yanaşı şərq fəlsəfəsinə də istinad edərək əsasən filosofların, moralistlərin, hüquqşünas filosofların, siyasi xadimlərin, tarixçilərin, sosioloqların, iqtisadçıların və digər alimlərin qəbul olunan ideyaları əsasında tədqiq və təhlillər aparılmışdır. Burada hüququn fəlsəfəsi, hüquq elmi, fəlsəfədə hüquq və etikanın nisbəti, hüquq və əxlaq, əxlaq və qanun, qanuni etika anlayışı, insan və qanun, insan və ədalət, hüquq və ədalət, hüquq və insaf, hüquq və vicdan, hüquq və adət-ənənə, hüquq və ictimaiyyət, xristian və islam dinində hüquq və əxlaq normaların qarşılıqlı əlaqəsi, həmçinin bu mövzular arasında oxşar və fərqli aspektlər, bunların arasında olan bağlılıq, bəzi hallarda ayrılıq, ictimaiyyət üçün mühüm əhəmiyyət kəsb etməsi və digər mühüm mövzular müxtəlif dillərdə səhih mənbələr əsasında tədqiq olunmuşdur ki, bunlar dissertasiya işinin predmeti hesab olunur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Yuxarıda da qeyd olunduğu kimi hazırkı mövzu mədəniyyətinin formalaşmasında əsas amillərdən biri olmasına baxmayaraq aparılan elmi araşdırmalarda kənarda qalmışdır. Dissertasiya mövzusunun tədqiqində başlıca məqsəd bundan ibarətdir ki, hər bir xalqın ictimai-siyasi, mədəni dünyagörüşündə əsas yeri olan hüquq və qanunlar əxlaq normaları əsasında formalaşaraq ictimaiyyətə təqdim olunur. Hər bir qanunun kökündə etik normalar mövcuddur, əxlaq normalarına əsaslanmayan qanun ictimai funksiya daşıya bilməz, əgər daşısa da bu, etibarsız hesab olunur. Hüquq və qanunların yaranmasında və işlənməsində mühüm əhəmiyyət kəsb edən əxlaq normaları və bunların müqayisəli tədqiq və təhlilini tədqiqatın məqsəd və vəzifələri hesab etmək olar. Elə bu məqsədlə, tədqiqatın vəzifələrini aşağıdakı müddəalarda təsbit etmək olar:

- Hüququn fəlsəfəsi və hüquq elmi: hüququn fəlsəfəsinin hüquq elmində əhəmiyyəti və rolunun izahı və təhlili;

- Yunan filosoflarının əsərlərində dövlət, hüquq və etik meyarların oxşar və fərqli aspektlərinin tədqiqi və təhlili;

- Qərb filosoflarının hazırkı mövzuya (hüququn fəlsəfəsi, hüquq və əxlaq) diqqəti və bunun əsas səbəblərinin izahı;

- Hüquq və etikanın qarşılıqlı əlaqəsi: tədqiqatda əsas suallardan biri də budur ki, nəyə görə filosoflar hüquq və etika arasında bağlılığın olmasını iddia edirlər və buna səbəb nədir?

- Filosofların, moralistlərin, hüquqşünas filosofların və digər alimlərin əsərlərində hüquq və etikanın nisbəti, oxşar və fərqli cəhətləri dedikdə hansı müddəalar nəzərdə tutulur?

- Hüquq və əxlaq fərqli məfhumdur, ancaq hansı səbəblərə görə filosoflar, etiklər və hüquqşünas filosoflar mövzuya bu qədər diqqət göstərmişlər?

- Hüquq və əxlaqın bağlılığında, bəzi hallarda ayrılığında əsas arqumentlər hansılıardır?

- Hüquq və əxlaqın oxşar və fərqli cəhətləri, cəmiyyətə təsiri, həmçinin fəlsəfi, hüquqi və sosioloji aspektdə müqayisəli tədqiqi;

- Ədalət, insaf, vicdan, adət-ənənə meyarlarının qanunların mövcudluğunda və işlənməsində əsas funksiyası nədən ibarətdir?

- Ədalət, insaf, vicdan və adət-ənənənin ictimai-siyasi funksiyası, həmçinin oxşar və fərqli cəhətlərinin fəlsəfi və hüquqi aspektdə müqayisəli tədqiqi;

- Hüququn fəlsəfəsində əxlaq və qanun anlayışı, qanun və onun növləri: təbii (ilahi) və pozitiv (bəşəri);

- Əxlaq və qanunun prinsipləri, ictimai-siyasi təsiri, qarşılıqlı əlaqəsi, oxşar və fərqli cəhhətləri, fəlsəfi və hüquqi aspektdə müqayisəli tədqiqi;

- Bu mövzuda qərb filosof və hüquqşünas filosofların, etiklərin ideyalarının müsəlman alimlərinə təsirinin araşdırılması;

- Hazırkı mövzu barədə müsəlman alimlərinin qərb alimlərinin ideyalarına istinadın edilməsi və bunun təsirindən (bu istiqamətdə) yeni əsərlərin yazılması. Dissertasiyada müsəlman alimlərinin həmin əsərlərinə istinadların olunması;

- Dissertasiya mövzusunun tədqiq və təhlilindən sonra konkret

olaraq hər bir fəslin, həmçinin tədqiqatın sonunda ətraflı və dolğun ümumi nəticənin əldə olunması;

- Qeyd olunan məsələlərlə yanaşı dissertasiya mövzusunun məqsəd və vəzifələri bundan ibarətdir ki, hüquq təkcə hüquq elmləri çərçivəsində araşdırıla bilıməz, çünki hüquq ümumi məfhum olaraq bütün elmlərdə yeri vardır, o cümlədən fəlsəfədə də. Hüquq və etika arasında oxşar və fərqli məsələlərin olmasına baxmayaraq hər iki kateqoriyadan məqsəd mövcud aləmin, o cümlədən insanın dəyərləndirlilməsi və bütün hallarda qorunmasıdır.

**Tədqiqatın metodları.** Tədqiqat işində mövzuya məntiqi və sistemli yanaşma və müqayisəli təhlil metodlarından istifadə edilmişdir; dissertasiya işində hüquq və etikanın, hüquq və əxlaqın fəlsəfi-hüquqi, ictimai-siyasi prinsiplərindən, əhəmiyyətindən, həmçinin hüquq və ictimaiyyət, hüquq və dövlət, hüquq və siyasət, əxlaq və qanun, əxlaqın mühüm xüsusiyyətlərindən olan ədalət, insaf, vicdan və adət-ənənənin lüğətdə və mövzuda işlənmə mənalarından, fəlsəfi-hüquqi və etik aspektlərindən, qarşılıqlı əlaqələrindən bəhs edərkən tələb olunan metodlardan, o cümlədən sintez, müşahidə, müqayisə, məntiqi mühakimə, sistemli təhlil və digər metodlardan istifadə edilmişdir. Bunları nəzərə alaraq dissertasiya işinin metodoloji əsaslarını aşağıdakı bəndlərdə ümumiləşdirmək olar:

- Hüquq və etika qədim yunan mütəfəkkirlərinin diqqət yetirdiyi mövzu olmasına baxmayaraq orta əsrlərdə, yeni və müasir dövrdə filosoflarla yanaşı hüquqşünas filosofların, moralistlərin, hüquqşünasların, siyasətçilərin, tarixçilərin hətta iqtisadçıların tədqiq etdiyi mövzulardan olmuşdur;

- Dissertasiya işində Qərb və Şərq fəlsəfəsinə, hüquq elminə, dövlət və hüquq nəzəriyyəsinə, beynəlxalq hüquq normalara istinad edərək hüquq və əxlaqın nisbəti, oxşar və fərqli xüsusiyyətləri, hüquq və qanunların nəzəri, praktiki cəhətləri müqayisəli aspektdə tədqiq olunmuşdur;

- Filosoflar və hüquqşünas filosofların, siyasi xadimlərin hüquq və əxlaq, əxlaq və qanun, əxlaqın xüsusiyyətləri, bunların oxşar və fərqli cəhətləri barədə fərqli ideyaları və bu ideyaların müqayisəli tədqiq və təhlili;

- Ədalət, insaf, vicdan, adət-ənənə, bərabərlik və azadlıq

məfhumların terminoloji aspektləri ilə yanaşı bunların oxşar və fərqli cəhətləri, ən əsası əxlaqi, ictimai-siyasi təsirlərinin fəlsəfi, hüquqi və sosioloji aspektdə tədqiqi;

- Xristian və islam mədəniyyətinin əsasını təşkil edən hüquq və əxlaq normaları, islam hüquq quruluşlarının etik dəyərləri, ictimai-siyasi əhəmiyyəti, bunların arasında oxşar və fərqli məsələlərin müqayisəli tədqiqi;

- Qərb və Şərq fəlsəfəsində istifadə olunan əsas metodoloji və elmi-tədqiqi nəticələrə üstünlük verilməsi;

- Dissertasiyada əks olunan mövzuların ardıcıllığı və bunların arasında olan fikir aydınlığı və səlistliyi. Aparılan fəlsəfi, əxlaqi, hüquqi və məntiqə uyğun tədqiq və təhlillər, həmçinin əldə olunan nəticələr hüquq və əxlaq fəlsəfəsinin əsas metodlarından biri kimi nəzərdə tutulmuşdur. Qərb fəlsəfəsində geniş araşdırılan fəlsəfə, hüquq, əxlaq, qanun, ədalət, insaf, vicdan, adət-ənənə, dövlət, siyasət, ictimaiyyət və bunların mühüm funksiyaları hazırkı dissertasiyanın əsasını təşkil edir. Tədqiqatçı dissertasiya işinin mahiyyətini, onun elmi və ictimai zəruriliyini dərk edərək, bu barədə uzun illər elmi araşdırmalar, tədqiqatlar aparmış və mövzunu özünün formalaşdırdığı elmi sübutlar əsasında tədqiq etmişdir. Tədqiqatda tələb olunan metodlara əsaslanmaqla elmi əsərlər xronoloji ardıcıllıqla sistemləşdirilmiş, Qərb və Şərq alimlərinin hazırkı mövzu barədə oxşar və fərqli ideyaları müqayisəli aspektdə tədqiq olunaraq əhatəli və mükəmməl nəticələr əldə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində aşağıdakı müddəalar müdafiəyə təqdim olunur:

- Etika və Hüquq: hüququn fəlsəfəsi və hüquq elmi; etik normaların hüquq və qanunlarda təsiri;

- Hüquq elminin fəlsəfi anlayışı, mahiyyəti, etik xüsusiyyətləri, oxşar və fərqli aspektləri;

- Qədim Yunan fəlsəfəsində dövlət, hüquq və etik kateqoriyaların tədqiqi və müqayisəli araşdırılması;

- Əxlqın hüquqla bağlı olan əsas xüsusiyyətləri: ədalət, insaf, vicdan və adət-ənənənin hüquq və qanunlarda təsiri və funksiyası;

- Müasir hüquq fəlsəfəsində ədalət, insaf, vicdan və adət-ənənənin fəlsəfi, etik, hüquqi mənası, rolu, həmçinin məhkəmə

sistemində funksiyası;

- Etika və hüququn qarşılıqlı əlaqəsində etik normaların təsiri;
- Müasir filosof, moralist və hüquqşünas filosofların (legal philosophers) əsərlərində, həmçinin dövlət və hüquq nəzəriyyəsində ədalət, insaf, vicdan və adət-ənənənin funksiyası;
- Hüququn fəlsəfəsində əxlaq və qanun: əxlaq və qanunun qarşılıqlı əlaqəsi, oxşar və fərqli cəhətləri;
- Pozitiv hüquq və təbii qanun (natural law) nəzəriyyəsində əxlaq və qanun anlayışı, ictimai-siyasi prinsipləri;
- Təbii qanunların pozitiv qanunlara təsiri.

**Tədqiqatın elmi yeniliyi.** Fəlsəfədə hüquq və əxlaq arasında oxşar və fərqli aspektlərin Qərb fəlsəfəsində aktuallığını, həmçinin mövzunun fəlsəfi, etik və hüquqi zəruriliyini nəzərə alaraq, hazırkı dissertasiya işində bir sıra yeni, elmi nəticələr əldə olunmuşdur ki, bunları dissertasiyada qarşıya qoyulmuş mövzuların elmi yeniliyi hesab etmək olar:

- Mövzu, qarşıya qoyulmuş məqsəd və vəzifələrlə bağlı şəkildə müəyyənləşdirilərək tədqiq olunmuşdur;
- Mövzu, təhlil olunan elmi əsərlər içərisində ilk dəfə olaraq dissertasiya mövzusu kimi elmi əsərlərə istinad etməklə tədqiq olunmuşdur;
- Qərb filosoflarının və hüquqşünas filosofların əsərlərində gizli qalan mühüm məsələlər üzə çıxarılaraq tədqiq və təhlil edilmişdir; məsələn, hüquqşünas filosoflar fəlsəfə və hüququn, həmçinin hüquq və etikanın nisbətindən bəhs edərkən daha çox hüquq və qanunların mahiyyətinə, ictimai funksiyasına diqqət edərək, bunların yalnız qanunvericiliklə bağlı olduğunu iddia etmişlər. Ancaq tədqiqatçı çalışır sübuta yetirsin ki, insana mənsub olan haqlar qanunvericilik tərəfindən deyil, mütləq varlıq (Tanrı) tərəfindən insana verilir;
- Burada digər mühüm məsələ bundan ibarətdir ki, filosof hər hansı bir məsələnin baş vermə səbəblərini axtarır və çalışır ki, hüququn praktiki tərəflərinə istinad etməklə irəli sürdüyü məsələləri sübuta yetirsin. Əsas hədəf ondan ibarətdir ki, hüquqla bağlı olan məsələlər təkcə qanunlar çərçivəsində deyil, həm də *dəqiq elmlərə* (rational sciences) əsasən öyrənilməlidir, çünki hüquq təbii bir məfhumdur ki, qanunların yazılmasından əvvəl yaranmışdır və bütün

elmlərdə, o cümlədən fəlsəfə və məntiqdə də xüsusi yeri vardır;

- Hüquq sabit və dəyişməzdir, çünki cövhərdir (substance); lakin qanun daim dəyişir və qeyri-sabitdir, çünki ərəzdir (accident);

- Hüququn fəlsəfəsi və hüquq elmində mövcud olun mühüm məsələlər təkcə hüquq elmi, hüququn tarixi və ya qanun nəzəriyyəsi ilə məhdudlaşa bilməz, burada hikmət (fəlsəfə) və elmin (hüquq) bağlılığı əsas şərtlərdəndir ki, məhz bunun nəticəsində fəlsəfi, hüquqi, ictimai-siyasi təfəkkür formalaşır;

- Filosoflar hüququn fəlsəfsini yazarkən, həmçinin hüquq və etikanın qarşılıqlı əlaqəsindən bəhs edərkən əsas hədəfləri ilahi tərəfindən insana verilən təbii haqları və dəyərləri göstərməkdir. Çünki mövcud aləm insana məxsusdur və filosof çalışır ki, haqlara və etik normalara əsaslanaraq insana xas olan düşüncə və üstünlükləri izah etsin, bütün hallarda insan varlığının dəyərlərini məntiq əsasında sübuta yetirsin;

- Hüquq və etikanın qarşılıqlı əlaqəsindən əsas məqsəd insanı cəmiyyətə ləyaqətli bir şəxsiyyət kimi təqdim etməkdir, çünki hüquq şəxsiyyəti araşdırır, əxlaq isə şəxsiyyəti formalaşdırır;

-Tədqiqatda filosofların, hüquqşünas filosofların, hüquqşünasların, həmçinin digər alimlərin (siyasiətçilərin, moralistlərin, iqtisadçıların, tarixçilərn və s.) hüquq və əxlaq, əxlaq və qanun barədə fikirlərində oxşar və fərqli məsələlərin müqayisəli tədqiqi və təhlili; bəzi hüquqşünas filosflar, o cümlədən digər alimlər hüququ etikadan ayrı hesab etsələr də, lakin tədqiqatçı çalışır sübuta yetirsin ki, hüquq və etika söz baxımından fərqli olsa da, hədəf baxımından fərqli deyildir, çünk ictimai-siyasi təhlükəsizlik təkcə hüquq normaları ilə idarə oluna bilməz, burada etik normaların da mövcudluğu əsas şərtlərdən biridir;

- Platon və Aristotel fəlsəfəsində təbii hüquq və əxlaqın qarşılıqlı əlaqəsi, oxşar və fərqli aspektlərində əsas müddəalar;

- Aristotel fəlsəfəsində ədalət və onun növləri, (ümumi və xüsusi, bölgülü və mübadiləli, mütləq və nisbi, təbii və qanuni) ictimai-siyasi funksiyası, oxşar və fərqli cəhətləri;

- Əxlaqın mühüm xüsusiyyətləri olan ədalət, insaf, vicdan, adət-ənənənin oxşar və fərqli cəhətləri, bir-brinə təsiri, həmçinin hüquqi, ictimai-siyasi funksiyasi;

- Haqlarla bağlı olan məsələlər müəyyən qaydaya tabedir, ancaq ədalət müəyyən qaydaya tabe deyildir;

- Əxlaq və qanunun nisbəti, oxşar və fərqli cəhətləri, ictimai-siyasi və etik funksiyalarında əsas müddəalar;

- Əxlaq və qanunun nisbətində filosoflarla yanaşı hüquqşünas filosoflar arasında fikir ayrılığı mövcuddur, lakin tədqiqatçı bu fikir ayrılığının səbəblərini açıqlamaqla yanaşı, bunları müqayisəli aspektdə araşdıraraq diqqəti yeni məsələlərə yönəldir. Dissertasiyada qeyd olunan yeni məsələlər və elmi yeniliklər müxtəlif dillərdə mötəbər mənbələrə istinad edilərək müqayisəli aspektdə araşdırılan tədqiqatın nəticəsidir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işi bir çox mühüm mövzuları ehtiva edir, həmçinin hazırkı və gələcək dövrdə də bu mövzuların müxtəlif aspektdə tədqiq və təhlili üçün zəmin yaradır. Dissertasiyada mövzular tədqiq olmaqla yanaşı, həm də geniş təhlillərə yer verilmişdir. Mövzunu elmi əsaslarla tədqiq etmək, ortaya çıxan səbəbləri öyrənmək, bu istiqamətdə problemin həlli yollarını araşdırmaq vacib məsələdir. Hazırkı dövrdə hüquq və əxlaq normalarının əlaqəsi, ictimai-siyasi funksiyası, cəmiyyət üçün zəruri məsələ olmaqla yanaşı, həm də mühüm əhəmiyyət kəs edən mövzulardandır.

Məlum olduğu kimi ölkəmizdə hüququn fəlsəfəsi, hüquq və etika, hüquq və əxlaq və bununla bağlı digər mühüm mövzular tədqiqatdan kənarda qalmışdır, məhz bu baxımdan dissertasiyanın elmi-nəzəri və praktiki əhəmiyyəti olduqca böyükdür. Tədqiqatda mövzu ilə bağlı təkcə filosoflara deyil, hüquqşünas filosoflara, hüquqşünas alimlərə, həmçinin mövzu barədə tutarlı ideyaları olan alimlərin əsərlərinə istinad etməklə tədqiq olunan mövzular və əldə olunan nəticələr gələcəkdə bu kimi mövzular ətrafında araşdırma aparan tədqiqatçılara müəyyən istiqamət verə bilər, həmçinin yeni əsərlərin yaranmasında yardımçı olar.

Hüquq və etika barədə yazılan hər hansı bir elmi əsər və ya aparılan konfrans üçün mühüm əhəmiyyət kəsb edə bilər. Bundan başqa, tədqiqatda mötərizə daxilində verilən xüsusi terminlərin tərcüməsi və mənaları (ingilis, fransız, latın, ərəb dillərində) gələcəkdə fəlsəfə və hüquq sahəsində yazılan əsərlərdə mühüm

əhəmiyyət kəsb edə bilər.

Dissertasiya işi və müəllifin bu sahədə apardığı araşdırmalar bir sıra elmi mərkəzlər, xüsusilə universitetlər, həmçinin hazırkı mövzu barədə araşdırmalar aparmaq istəyən tədqiqatçılar üçün əhəmiyyət kəsb edə bilər. Bundan başqa, mövzu ilə bağlı müstəqil təhlillər aparan tədqiqatçılar, dissertantlar, tələbələr, həmçinin Qərb və Şərq filosofları, hüquqşünas filosofları, hüquqşünas alimləri öyrənən elmi müəssisələr, təşkilatlar, fəlsəfi-hüquqi araşdırma mərkəzləri, fəlsəfə və hüquq tədrisi ilə məşğul olan mütəxəssislər üçün faydalı hesab oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya işi AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun "Etika" və "Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq fəlsəfəsi" şöbələri ilə birgə müzakirə edilmişdir. Dissertasya işinin əsas müddəaları və elmi nəticələri:

- Monoqrafiaya. Hüququn fəlsəfəsi. Monoqrafiya Luqansk vilayətinin diplomdansonrakı pedoqoji təhsil İnstitutunun Elmi Şurasının (protokol № 7 26.12.2018) qərarı əsasında rus dilində Ukraynanın "Sobornost" nəşriyyatında 2019-cu ildə nəşr edilmişdir;
- Monoqrafiya. Hüququn fəlsəfəsi. Bakı: Avropa nəşriyyatı 2019;
- Lüğət kitabı. "İngiliscə-Azərbaycanca hüquq lüğəti". Lüğət kitabı Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının 1 fevral 2022-ci il tarixli qərarı ilə "Elm" nəşriyyatında çapa tövsiyə olunmuşdur.

Dissertasiya mövzusu ilə bağlı 27 (1 tezis) elmi məqalə ölkəmizdə və xaricdə nəşr olunmuşdur. Məqalələrin nəşr olunduğu jurnalların bir neçəsinin adını qeyd edirik:

AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, YUNESKO-nun təsis etdiyi "Ümumdünya fəlsəfə günü"nə həsr olunmuş beynəlxalq elmi konfransın materialları; Bakı Universitetinin xəbərləri. Sosial-siyasi elmlər seriyası jurnalı; Bakı Dövlət Universiteti, Azərbaycan Hüquq Jurnalı; Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası. Dövlət İdarəçiliyi: Nəzəriyyə və Təcrübə; AMEA Fəlsəfə və Sosiologiya İnstitutu "Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq", (məqalələr toplusu); həmçinin ölkədən kənarda Malayziya Beynəlxalq Universitetinin Teologiya və Fəlsəfə şöbəsinin

və Müsəlman Filosoflar və Teoloqların Beynəlxalq Cəmiyyəti (ISOMPT) tərəfindən nəşr edilən "Beynəlxalq İslam Təfəkkürü Jurnalı" (jurnal "Scopus", "Web of Science" və başqa yüksək indekslərin bazasına daxildir); "VIRTUS" Beynəlxalq elmi jurnal, Kiyev; XLVIII Beynəlxalq Elmi-Praktik Konfransın Materialları (XLVIII Proceedings of the International Scientific-Practical Conference); "XXI əsrdə hüquqi biliklərin artırılması məsələləri: nəzəriyyə ilə təcrübənin vəhdəti" ("Issues of increasing legal knowledge in the 21st century: unity of theory and practice"), Rusiya-Kazan; "Elmi müzakirə", Beynəlxalq elmi jurnal. Çexoslovakiya (Scientific discussion". İnternational scientific journal. "Scientific", Praha-Çexiya); Elm və təhsilin perspektivləri": II Beynəlxalq gənclər konfransı, Beynəlxalq elmi jurnal, Amerika (Perspectives of science and education" II International youth conference. İnternational scientific journal. "Slovo word" New-York).

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun "Etika" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiya işinin strukturu və ümumi həcmi.** Dissertasiya Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır. Dissertasiya işi giriş (34.169 şərti işarə), beş fəsil (birinci fəsil dörd paraqraf – 128.995 şərti işarə; ikinci fəsil dörd paraqraf – 103.791şərti işarə; üçüncü fəsil üç paraqraf – 76.444 şərti işarə; dördüncü fəsil dörd paraqraf – 78.624 şərti işarə; beşinci fəsil dörd paraqraf – 56.957 şərti işarə), dissertasiyanın ümumi nəticəsi (12.031 şərti işarə), fəlsəfi və hüquqi lüğətlər (mötərizə daxilində göstərilmişdir), səkkiz dildə (azərbaycan, türk, rus, ingilis, alman, fransız, ərəb, fars) istifadə edilmiş ədəbiyyat siyahısından və elektron resurslardan ibarətdir. Dissertasiya işinin ümumi həcmi ədəbiyyat siyahısı ilə birlikdə 273, ədəbiyyat siyahısı istisna edilməklə 246 səhifədən, 76.739 sözdən və 492.105 şərti işarə sayından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Dissertasiyanın birinci fəsli "Etika və hüquq: Hüququn fəlsəfəsi və hüquq elmi" adlanır.** ***"Hüququn fəlsəfi anlayışı, mahiyyəti və etik xüsusiyyətləri"*** dedikdə, burada hüququn fəlsəfi anlayışı, hüquq elmi və onun ictimai-siyasi və etik xüsusiyyətləri, hüququn fəlsəfəsinin hüquq elmində əhəmiyyəti və rolu; dövlət və hüquq nəzəriyyəsində etik dəyərlər və digər mühüm mövzular tədqiq olunmuşdur. Etika və hüququn nisbəti dedikdə, məqsəd hüquq elminin təkcə qanunlar çərçivəsində deyil, həm də etik dəyərlər əsasında öyrənilməsidir.

Ümumiyyətlə, hüquqla bağlı məsələlər iki mühüm hissəyə – iradə və şəxsiyyətə ayrılır və bunların hər biri praktiki məsələlərlə sıx bağlılığı vardır. İradə və şəxsiyyət praktikada üç əsas məfhumun meydana gəlməsinə səbəb olur ki, bunlar "*hüquq"*, "*dövlət"* və *"etika"*dır. Burada filosof və hüquqşünasların fikir ayrılığına gəldikdə isə filosoflar hüququn funksiysını daha çox əxlaq normaları ilə əlaqələndirirlər, lakin hüquqşünaslar hüququ tarixi, ictimai-siyasi münasibətlər və sosial məsələlərlə bağlı olduğunu iddia edirlər. Filosoflar hesab edir ki, hüquq etik dəyərləri müəyyən olunmuş qaydalara əsasən nizamlayan çox güclü və qüdrətli bir sistemdir; hüquq eyni zamanda ictimai varlığın əsas göstəricisidir.[32] Hüquqşünaslar hüququ daha çox ictimai münasibətlərlə əlaqələndirir və bu münasibətləri nizamlayan bir sistem kimi təqdim edirlər: "Hüququn anlayışı, mahiyyəti, əlamətləri və funksiyaları dedikdə, nəzərə almaq lazımdır ki, hüquq şəxsiyyətin azad inkişafını, cəmiyyətdə mütəşəkkilliyi və qaydanı təmin edərkən ictimai münasibətlərin dövlət nizamlayıcısı kimi çıxış edir".[33]Bəzən hüququn fəlsəfi anlayışı fərqli bir formada tərif olunur. Müəllifin fikrincə, hüququn fəlsəfi anlayışının ən mühüm elementi hüququn *ədalət* baxımından bir dəyər kimi araşdırılmasıdır. Bu vəziyyət qanuna mədəniyyət görkəmi verir, ona daxilən əməl etməyin nə üçün zəruri

---

[32] Patterson, E. W. Jurisprudence. Men and Ideas of the Law. – New York: Brooklyn The Foundation Press INC, – 1953. – p. 431.

[33] Məmmədov, İ. S., Süleymanov C. A. Dövlət və hüquq nəzəriyyəsi: 100 suala 100 cavab. / İ. Məmmədov, C. Süleymanov. – Bakı: Çaşıoğlu, – 2005. – s. 13.

olduğunu göstərir, həmçinin ictimai sülh, yüksək dəyər seçimi baxımından hüquq və ədalət münasibətlərindən bəhs edir.[34] Hər iki tərifdən göründüyü kimi hüquq praktikadan ayrı deyil; filosoflar hüququ praktikadan ayırmır, əksinə həm praktiki, həm də fəlsəfi mənalara istinad edərək hüququ həm məfhum, həm də məna baxımından izah edirlər.

Hazırkı fəsildə etika və hüququn nisbətindən bəhs edərkən digər mühüm məsələlərdən biri də hüquqi sistem və onun etik funksiyalarıdır. S*istem* hər bir ölkənin özünə xas qanun-qaydalara, adətlərə uyğun olaraq tərif olunur. Ümumilikdə, sistem aşağıdakı üç əsas şərti əhatə edərək iki və daha çox elementdən ibarətdir: a). Sistemin hər bir elementi sistemin bütün davranış və xüsusiyyətlərinə təsir edir; b). Sistem elementləri arasında[35] qarşılıqlı əlaqə mövcuddur; c). Hər bir məcmuə elementlərdən təşkil olunur ki, sistemin bütün davranışlarına təsir edir. Məhz bu təsirdir ki, ən azı sistemin başqa bir məcmuəsi ilə bağlılığı vardır, bir növ ondan asılıdır.[36] Hüquqi sistem və onun etik funksiyalarına gəldikdə isə bu, hüquqi təşkilatlarla əlaqəlidir; hüquqi qaydalar müstəqil və bir-birindən ayrı deyil, bu qaydaların hər biri hədəfə çatmaq üçün ictimai məsələlərdən birini əhatə edir. Hüquqi təşkilat etika və ailə məsələlərini (nigah, irs, aliment və digər məsələlər) yaradan əsas təşkilatlardan biridir. Burada məntiqi bir bağlılıq hüquqi təşkilatları və qaydaları bir-birinə birləşdirir və bu bağlılığın toplusundan hər bir ölkənin *hüquqi sistemi* (the legal system) yaranır.

***Dissertasiyanın digər paraqraflarında “Hüquq elmi və onun ictimai, etik və fəlsəfi prinsiplərindən”, “Hüququn fəlsəfəsinin hüquq elmində əhəmiyyəti və rolundan”, “Hüququn fəlsəfəsində, dövlət və hüquq nəzəriyyəsində etik dəyərlər, oxşar və fərqli aspektlərindən”*** bəhs olunur. Hüquq elmi və onun ictimai, etik və fəlsəfi prinsiplərindən bəhs etməzdən əvvəl, hüquqi qaydalara diqqət yetirmək zəruridir. Hüquqi qaydaların tam tərifini vermək üçün ilk

---

[34] İşıktaç Yasemin. Hukuk Felsefesi / Y. İşıktaç. – İstanbul: Filiz Kitabevi, – 2006. – s. 30-33.

[35] Sistemdə davranış və təsir növü baxımından.

[36] Ackoff, R. L. From mechanistic to social systemic thinking. Cambridge. – MA: Pegasus Communications Inc, – 2000. – p. 146.

növbədə onun prinsip və hədəfini müəyyən etdikdən sonra xüsusiyyətlərini bilmək lazımdır, həmçinin bu qaydaları[37] aydınlaşdırmaq üçün ilk növbədə hüququn cövhərini təşkil edən səbəblər müəyyən olmalıdır. Hüquqi qaydaların vəzifəsi nəsihət və yol göstərmək deyil, bəlkə məcbur etməkdir; daha dəqiq desək, həmişə məcburiyyətlə birlikdədir. Bu qaydalar etik normalara əsaslanaraq insanların əməllərinə nəzarət edir və onun icrası dövlət tərəfindən təmin olunur, həmçinin hüquqi qaydalar müəyyən əmələ və davranışa başçılıq edən hökm (judgement) adlanır. Digər tərəfdən isə hüquqi qaydaları ictimai qaydalardan fərqləndirən mühüm bir məsələ ondan ibarətdir ki, bu qaydalar dövlət hakimiyyəti tərəfindən müdafiə olunsun və onun yerinə yetirilməsi dövlət tərəfindən tənzimlənsin. Müəllifin də qeyd etdiyi kimi hüquqi qaydaların yaranmasında hakimiyyətin təsiri vardır: dövlətin yaranması (hüquqi qaydaların da daxil olduğu), mövcud olması, inkişaf etməsi prosesinin əsas qanunauyğunluqlarından biri də hakimiyyətin həmin prosesə göstərdiyi təsirdir.[38] Hüquqi qaydaları ictimai qaydalardan fərqləndirən əsas məsələ də elə budur. Bundan sonra dövlətin vəzifəsi ictimai sabitliyi yaratmaq və insanlar arasında ədaləti bərpa etməkdir. Buna görə də hüquqi qaydaları tərif edərkən etik normalarla dövlətin prinsipləri nəzərə alınaraq hüquqa düzgün tərif vermək lazımdır: "hüquqi qaydalar etik normalara əsaslanaraq insanların davranışlarına başçılıq edir və bu qaydaların yerinə yetirilməsi dövlət tərəfindən müdafiə olunur".[39]Buna misal olaraq demək olar ki, valideynin övladı qarşısında vəzifəsi, yəni şəxsin öz övladının anasına aliment ödəməsi; bundan əlavə, bu qaydaların bir hissəsi nigah məsələsini əhatə edir, ər və arvad arasında olan əlaqələri tənzimləyir, irslə bağlı olan məsələləri təsdiq etməklə köməksiz və zəif insanlara himayədarlıq edərək onların müdafiəsini təmin edir. Göründüyü kimi bu məsələlər təkcə hüquqla bağlı deyil, burada etik normalara riayət olunması da

---

[37] İnsan və onun yaşayışına hakim olan qaydalar nəzərdə tutulur.

[38] Məmmədov İ. Dövlət və hüquq nəzəriyyəsi / İ. Məmmədov. – Bakı: Çıraq, – 2005. – s. 223.

[39] Katuzian, N.Ə. Hüququn fəlsəfəsi: hüququn tərifi və mahiyyəti / N. Katuzian. – Tehran: Səhmdar Cəmiyyəti, – 2009. – c.1, s. 35.

özünü göstərir. Hər hansı bir hökm ki, bunları qanuniləşdrir, onların yerinə yetirilməsini qərara alır, bütün bunlar hüquqi və etik qayda hesab olunur.

***"Hüquq elmi və onun ictimai, etik və fəlsəfi prinsiplərinə"*** gəlincə isə qeyd etmək lazımdır ki, hüquq elmi etik dəyərləri, o cümlədən ədaləti bərpa etmək hüququ olan şəxslərin əlində bir vasitədir, çünki hüquqşünas alimlər səy göstərirlər ki, bu elmdən istifadə etməklə qanun yaratsınlar, insanların problemlərini həll etsinlər. Hüquq elmi ictimai elmlərin bir şaxəsi olaraq əsas mövzusu ictimai, tarixi hadisələri təhlil etmək, ictimaiyyət və dövlət üzərində hakim olan qaydaların[40] funksiyasını öyrənməkdir. Hüquq təkcə ictimai məsələlərin müşahidəsi, təhlili ilə məşğul olmur, hüquq elmi həm də dövlətin idarə olunmasına, qanunların yaranmasına, onların müəyyən hədəfə çatmasına, həmçinin yeni ideyaların tətbiq olunmasına da diqqət edir; mənbədə də qeyd olunduğu kimi hüquq elmi etik normalarla yanaşı həm də insanların yaşayış qaydalarını özündə birləşdirən qanunlar məcmusudur.[41] Hüquq elminin əsas məqsədi odur ki, qanunlar cəmiyyətdə etik normalarla birlikdə işlənərək insanları müəyyən olmuş düzgün hədəfə çatdırsın. Hüquq elminə əsasən hüququn əsas iki hədəfi vardır; birinci: ictimaiyyətdə nizam-intizam yaratmaq, ikinci: insanlar arasında ədaləti bərpa etmək. Bu iki hədəf bir-birindən ayrılmazdır.

Hüquq elminin ictimai hədəfində etik normalara gəldikdə isə hüquq praktiki elmlərdən fərqli olaraq təkcə reallıqları əks etdirmir, hüquq həm də ağıl əsasında qərar verir; yəni bütün məsələlər məhz ağıla əsaslanaraq təhlil olunur. Hüquqşünas çalışır ki, qaydalara yiyələnməklə ümumi sabitliyi qoruyaraq etik normalara riayət etsin. Deməli, hüququn əsas hədəfi nəinki ictimaiyyətdə, hətta tək-tək insanlar arasında etik normalara önəm vermək, ədaləti bərpa etmək və qorumaqdır; elə bir hədəf ki, dövlət məhz bu hədəf əsasında qaydalar yaradır. Filosoflar və hüququ fəlsəfi aspektdən tədqiq edən hüquqşünas filosoflar çalışmışlar ki, ən üstün nəzəriyyəni təsdiq etsinlər. Onlar hüququn qaydalarını hər bir millətin mədəniyyətinin

---

[40] Elə bir qaydalar ki, bunların mövcudluğu ictimaiyyət üçün zəruri hesab olunur.

[41] Qüdrətullah Vahidi. Hüquq elminə giriş / V. Qüdrətullah. – Tehran: Mizan, – 2012. – s. 14.

inkişafı hesab edirlər; hüququn ən son hədəfi ictimaiyyəti qorumaq, onun inkişafını təmin etməkdir; hüquq elminə əsaslanan bütün qanun və qərarlar məhz ictimai hədəfə çatmaq üçündür.

***"Hüququn fəlsəfəsinin hüquq elmində əhəmiyyəti və rolu"*** ondadır ki, bu elm qanun və qaydaların dərk olunmasını aydınlaşdırır, irəli sürülən hər hansı bir hüquqi məsələdə hüquqi terminlərin işlədilməsini zəruri hesab edir, qanunvericilikdə və hüquqşünasların dünyagörüşündə mühüm rol oynayır, həmçinin hər hansı bir şeyin yaranma səbəbini axtarmaqla hüququn maraqlarına (dövlət, etika, əxlaq, siyasət, sahibkarlıq, kontrakt və s.) cavab verir.

***"Hüququn fəlsəfəsində, dövlət və hüquq nəzəriyyəsində etik dəyərlər, oxşar və fərqli aspektlər"*** dedikdə isə qeyd etməliyik ki, dövlət və hüquq nəzəriyyəsi ictimai elm olaraq dövlət və hüququ birlikdə öyrənir. Dövlət və hüquq nəzəriyyəsi hüquq elmindən, onun sahələrindən ayrı deyil, əksinə hüquq və onun bütün funksiyalarını dövlətlə birlikdə araşdırır; bundan əlavə, ictimai inkişafa təsir edən etik, iqtisadi, sosioloji, mədəni və geosiyasi amilləri də öyrənir. Məhz buna görə də dövlət və hüquq nəzəriyyəsi ilə digər ictimai elmlər arasında o cümlədən; tarix, politologiya, sosiologiya, sosial-psixologiya, etnologiya, etika və hüququn fəlsəfəsi arasında əlaqə yaranır. Bunların arasında hüququn fəlsəfəsi, dövlət və hüquq nəzəriyyəsinin nisbəti mühüm yer tutur. Hüququn fəlsəfəsində filosoflar etik normaları hüquqa nisbət verərək araşdırır, dövlət və hüquq nəzəriyyəsi isə ictimaiyyətdə mövcud olan qaydalardan ibarətdir; bunlar istər ölkə daxilində, istərsə də ölkədən kənarda olsun, burada əsas məqsəd hüququ öyrənmək, hüququn strukturunun təhlili və əsas məfhumların təyin olmasıdır[42]. Filosofların nəzərində etik normalar insana daxilən əmr edir ki, qanuna tabe olaraq dövləti müqəddəs hesab etsin, ictimaiyyətdə vicdanla yaşayıb ona sədaqətli olsun.

[42] Katuzian, N.Ə. Hüququn fəlsəfəsi: hüququn tərifi və mahiyyəti / N. Katuzian. – Tehran: Səhmdar Cəmiyyəti, – 2009. – c.1, s. 25.

**Dissertasiyanın ikinci fəsli “Qədim yunan fəlsəfəsində dövlət, hüquq və etik kateqoriyalar”dır.** Tədqiqatın bu fəslində Sokratın fikirlərinə, Platonun və Aristotelin əsərlərinə istinad edərək müqayisəli təhlillər aparılmışdır. Sokratın fikrincə, qanunlar insanlar tərəfindən yaranmayıb, bəlkə bu, İlahi tərəfindən bütün bəşəriyyət üçün yaranıb. Əgər insanlar onlar üçün yaranan bu qanunlara arxa çevirsələr, təbiətdə münaqişələr yaranar və bu da qanunsuzluğa gətirib çıxarar. *Fəzilət* və *yaxşılıq* (virtus, eminence, excellence) insan üçün faydalı və bəyənilmiş bir xüsusiyyətdir, amma *pislik və rəzillik* (vileness, vitium) isə insanı zərərə sövq edər.[43] Lakin Platonun nəzərində hüquqi əsaslar mövcud aləmin kəşf olunması deməkdir. Onun nəzərində hüquq real aləmi kəşf edən bir vasitədir; hüquq reallığın kəşfidir; biz hər hansı bir məsələni öyrənməkdə hüquqa ehtiyacımız vardır və bir çox məsələlər məhz hüququn vasitəsi ilə dərk olunur, çünki hüquq sonradan yazılan bir toplu deyil, fitri olaraq təbii ehtiyaclar əsasında yaranıb[44]. Bundan əlavə o, qanunun hər şeydən öndə olduğunu, ağılın mühafizəçisi və ağlı düzgün istiqamətə yönəldən vasitə kimi qeyd edir. Onun fikrincə, ictimai yaşayış bütövlükdə qanunlar daxilində idarə olmalıdır.[45]Amma Aristotel Platondan fərqli olaraq hüququn mahiyyət və mənasından daha çox xüsusiyyətlərindən bəhs etmişdir. O, hüququ vətəndaş üçün etik bir dəyər, qanunu isə xüsusi bir məqam və dərəcə hesab etmişdir.[46] Onun fikrincə, vətəndaşın üstünlüyü ondadır ki, qanuna uyğun olaraq qərar çıxartsın və çıxarılan hər hansı bir qərar ancaq qanuna tabe olsun.[47] Aristotel hüquq və qanunun əsaslarını *adət* ilə əlaqələndirir; qeyd etdiyi kimi: hüquq qüdrətdir (power) və bu qüdrət adətin gücünü

---

[43] Bədəvi, Ə. R. Ərəblər arasında Plotinus / Ə. Bədəvi. – Misir: Misir İntibah Kitabxanası, – 2012. – s. 46.

[44] Cairns H. Leqal Philosophy from Ploto to Hegel. – USA-Baltimore: The Johns Hopkins Press, – 1966. – pp. 29-30.

[45] Saunders, T. J. Plato: The laws. – Translation with an Introduction. – London: Penguin Books, – 1970. – p. 28.

[46] Martin, P. G. Phlosophy of Law. – USA: Prentice Hall, – 1975. – p. 255.

[47] Cairns H. Leqal Philosophy from Ploto to Hegel. – USA-Baltimore: The Johns Hopkins Press, – 1966. – pp. 140-184.

yerinə yetirir.[48]

Sokratın siyasi fəlsəfəsində mərifətşünaslığın (epistemologiya) əsas üsulları və etik xüsusiyyətlərinə gəldikdə isə burada üç əsas məsələyə diqqət etmək vacibdir. *Birincisi,* Sokrat ilk olaraq fəlsəfi fikirlərində insan və onun varlığından bəhs etmişdir. *İkincisi,* fəlsəfi məsələləri insan və onun ictimai-siyasi əqidəsi ilə əlaqələndirərək, bir növ siyasi fəlsəfənin tədqiqatı üçün zəmin yaratmışdır. *Üçüncüsü,* Sokrat əsas mövzulara, yəni açar məfhumlara istinad edərək, siyasi fəlsəfənin ən mühüm sual və prinsiplərini müxtəlif mərhələlərə ayırmışdır.[49] Sokratın əxlaq fəlsəfəsi dedikdə, burada əsas hədəf təkcə etik dəyərləri öyrənmək deyil, ən əsası etik dəyərlərə, keyfiyyətlərə sahib olmağın yollarını öyrənmək, həyatı bu dəyərlər əsasında qurmaq və davam etdirməkdir. Almaniyalı filoloq Yegerin (Werner Jaeger: 1888-1961) nəzərində Sokratın əxlaq fəlsəfəsi iki əsas komponentə əsaslanır:

***a). Mövzu və hədəf:*** Sokratın əxlaq fəlsəfəsində mövzu və hədəf dedikdə, burada insanın özünün vasitəsi ilə nəfsini (psyche: ilahi tərəfindən insana verilən varlıq – ruh, nəfs) qoruması, həmçinin bunun yolları barədə təlim nəzərdə tutulur.[50] İnsanın həyatının mükəmməl olmasında qeyd olunan etik normalar mühüm amil hesab olunur. Bu fəlsəfədə (əxlaq fəlsəfəsi) fəzilət kamillik deməkdir, yəni ruhun arzu olunan kamilliyidir.

***b). Başlanğıc və istiqamət:*** Sokratın əxlaq fəlsəfəsinin başlanğıc və istiqaməti fəzilətləri tanımaqdır.[51] Məhz bu tanımağın nəticəsində fəzilətə – etik dəyərlərə yol açılır; daha aydın desək, əgər insanlar bilsələr ki, yaxşı və bəyənilmiş əməllər nə deməkdir və bunun barəsində dərindən düşünsələr təbii ki, yaxşı və bəyənilmiş həyatı seçər və bu cür də davam edərlər. Buna görə də *pislik* və *rəzilllik* (rəzillik. Sokrat bunu akrasiya – ακρασία adlandırır) Sokratın əxlaq

---

[48] Friedrich, C. J. The Philosophy of Law in Historical Perspective. – Chicago: The University of Chicago Press, – 1969. – pp. 25-26.

[49] Jan Patoçka. (Jan Patočka) Sokrat: Cahillikdən xəbərdar olmaq / P. Jan. – Tehran: Hermes, – 2000. – s. 9.

[50] Jaeger, Verner. Paidia / V. Jaeger. – Tehran: Xarəzmi, – 1997. – s. 266-269.

[51] Seyid Mahmud, N. H.. Sokratın siyasi fəlsəfəsini yenidən oxumaq / N. Seyid Mahmud. – Tehran: Siyasi elm tədqiqatı, – 2007. – № 2, s. 80.

fəlsəfəsində və onun bizə tanıtdırdığı etik davranışlarda olması mümkün deyil. Ancaq Sokratın əxlaq fəlsəfəsində əsas istiqamət dedikdə, *insanın özünün olmaqlığı* (Sokrat buna *enkaratiya* – *a*κερατέα deyir), özünü tanımaqıdır ki, insanın daxilində olan azadlıq məfhumu ilə bağlıdır. Enkaratiya (*insanın özünün olmaqlığı)* siyasi azadlığa qarşıdır, halbuki dövlət rəhbərliyinin ortaq istəyi, yəni qanunun aliliyi siyasi birliyin qorunmasıdır.

***Hazırkı fəslin digər paraqraflarında "Platon fəlsəfəsində ideal dövlət və təbii hüquq məfhumlarının etik xüsusiyyətləri, oxşar və fərqli cəhətləri", "Aristotelin "Nikomaxusun əxlaqı" əsərində təbii hüquq və əxlaqın nisbəti", "Qədim Romada ictimai hüquq və onun əsas istiqamətləri"*** tədqiq olunmuşdur. Burada Platon daha çox ideal dövlət və təbii hüquqla bağlı olan məsələləri önə çəkmişdir. Nəzərə almaq lazımdır ki, Platonun siyasi fəlsəfəsində siyasət və etika bir-birindən ayrı deyil, o, insan necə yaşamalıdır sualına cavab tapmağa çalışırdı. Bunun üçün insanşünaslıq, etik xüsusiyyətlərlə bağlı olan bütün məsələlər, siyasi sistemlər və ədalət barəsində dərindən düşünürdü.

Platon fəlsəfəsində İdeal dövlətdə təbii hüquq və ədalət anlayışına gəldikdə isə o, ideal dövlətin mövcudluğunu məhz təbii hüququn prinsiplərinə riayət etməklə əlaqələndirir və bu, daha çox "*Qanunlar"* (Nóμοι, Nómoi) adlı əsərində öz əksini tapmışdır. Onun fikrincə, ən yaxşı qanunlar və ideal dövlətlər həmin qanunlar və dövlətlərdir ki, onlarda qüsurlar və çatışmazlıqlar daha az olmuş olsun və bunlar təbii qanunla və ideal dövlətlə daha çox bağlılığı olsun.[52]

Buna görə də Platonun ideal dövlətdə zəruri hesab etdiyi *"yaxşı"(goodness)* nümunəsi ən vacib və bəyənilən nümunədir ki, bu, həm etik, epistemoloji, ontoloji həm də ədalət baxımından digər nümunələrdən üstün hesab olunur. Çünki onun nəzərində ən yaxşı insan həmin insandır ki, yaşadığı həyatda yaxşı əməlləri yerinə yetirsin və daha yaxşı əməllərə sahib olsun.[53] Etik dəyərlərə malik

[52] Plato. Phaedo, in H. Tredennick trans., in E. Hamilton and H. Cairns eds., The Collected Dialogues of Plato. – Including the Letters Princeton, Princeton University Press, – 1961. – pp. 48 & 49, 65d-66a; 74d-75a.
[53] Gerasimos S. The Form of the Good in plato's Republic. – İn G. Fine ed., Plato I Metaphysics and Epistemology. Oxford Univeirsity Press, – 1999. – pp. 247 & 248.

olan ədalətli insan pisliklərdən, qəbul olunmayan əməllərdən kənarlaşaraq özünü fərdi və ictimai kamillik dərəcəsinə çatdırır və *"yaxşı"* əməllərə sahib olmaqla əsil, ədalətli insan *(ideal insan)* nümunəsini yaradır. Platonun əsaslandığı ideal dövlətdə *"qanun"* və *"ədalət"* heç bir ziddiyyət təşkil etmir. Buna görə də Platonun düşüncəsində qanun və ədalət arasında olan təzadların yaranması məhz maddi aləmdə həmin varlıqlar arasında mövcud olan ziddiyyətlərin nəticəsidir.[54] Ədalətə riayət etmək, ədalətli olmaq, ideal dövlətin qorunması və tam şəkildə tamamlanması etik dəyərlərin və əxlaqın ən üstün göstəricisidir.[55]

Burada digər mühüm mövzu ***"Aristotelin "Nikomaxusun əxlaqı" əsərində təbii hüquq və əxlaqın nisbəti"dir.*** Qeyd etmək lazımdır ki, Aristotel etikasının əsas qayəsi – mərkəzi konsepsiyası *xoşbəxtlik, müvəffəqiyyətə çatmaq* və *uğur qazanmaqdır*. O, bu əsərində ən üstün keyfiyyətlərin – yaxşılıqların (suprem good) axtarişındadır. Onun əsaslandığı əxlaq elə bir xüsusiyyətdir ki, ancaq insan onu özündə yaratmalı və tətbiq etməlidir; yəni bu keyfiyyətləri başqa vasitələrlə ələ gətirməklə deyil, bunlar insanda olmalıdır. Nəzərə almaq lazımdır ki, Aristotelin təbii hüquq və etik nəzəriyyəsi bəzi hallarda Platonun fikirlərindən tamami ilə fərqlənmişdir. Burada əsas fərq ondan ibarətdir ki, Platon fəlsəfi nəzəriyyəsini ontologiya ilə bağlı olan ideal nəzəriyyə ilə (ideas) əlaqələndirirdi, ancaq Aristotel isə bu nəzəriyyəni inkar edərək fəlsəfi – siyasi və etik nəzəriyyəsini dörd doktorin əsasında möhkəmləndirdi ki, bunlar ibarətdir: maddi (material), forma (formalis), subyekt (agens, subject) və məqsəd (final, cause, ultimate). Bundan əlavə, o, mövcud aləmin yaranmasında əsas məqsədə (final, cause) xüsusi diqqət edirdi.[56] Aristotelin təbii hüquq

---

[54] Friedrich, C. J. The Philosophy of Law in Historical Perspective. – Chicago: The University of Chicago Press, – 1958. – p. 17.

[55] Paşayeva, Ə. N. Platon fəlsəfəsində ideal dövlət və təbii hüququn (natural law) nisbəti, etik xüsusiyyətləri, oxşar və fərqli cəhətləri // – Bakı: Bakı Dövlət Universiteti, Hüquq fakültəsi. Azərbaycan Hüquq Jurnalı, – 2022. № 1, – s. 32-35.

[56] Werner J. Aristotle, Fundamentals of the History of His Development. Translated in Richard Robinson. – Oxford, Clarendon Press, – 1934. – p. 171.

və əxlaq nəzəriyyəsi güclü təbiətə (intense nature) söykənir; yəni mövcud aləmdə olan bütün varlıqların yaranmasında bir məqsədin və ya hədəfin olması səbəblərinə əsaslanır.

***“Qədim Romada ictimai hüquq və onun əsas istiqamətlərinə”*** gəldikdə, Romalılar hüququ əsas üç hissəyə ayırmışlar. *Birinci:* ictimai hüquq – müəyyən bir cəmiyyətdə vətəndaşlar üçün nəzərdə tutulan vətəndaş hüququ (mülki hüquq); *ikinci:* xüsusi hüquq – müəyyən bir zamanda cəmiyyətin bütün vətəndaşları üçün (xarici vətəndaşlar da daxil olmaqla) nəzərdə tutulan haqlar (insan haqları); *üçüncü:* dəyişməyən və həmişə sabit olan haqlar (təbii hüquq). Roma hüququnda ictimai (ümumi, mülki) və xüsusi hüquq arasında olan fərqi ilk dəfə Romanın ən məşhur hüquqşünaslarından biri olan *Domitus Alpianus* (Domitius Ulpianus: born 170 b.c., died 223 or 228 b.c.) tərəfindən *“Digest”* (Digest: Justinianın dövründə *ictimai qanun* haqqında toplanılan üç kitabdan (Digest, Codex, Institutes) biri) kitabının müqəddimə hissəsində qeyd olunmuşdur.[57]

Roma hüququnda mühüm məsələlərdən biri də *etik dəyərlərin* görünməməsidir, çünki Roma hüququnda əxlaq kateqoriyaları (ədalət, insaf, vicdan, bərabərlik və b.) məhz hakimiyyətin səlahiyyətləri daxilində həyata keçirilir, bu kateqoriyalara ayrı-ayrılıqda işarə olunmur. Səbəbi budur ki, qədim Roma adət-ənənələri daha çox prinsipial olaraq hakimiyyət, iqtidar – səlahiyyət məsələlərinə diqqəti yönəldirdi, etik və mənəvi məsələlər hakimiyyətin idarə olunmasında əsas rol oynamırdı, bu səbəbdən də hakimiyyət və hüquq arasında ciddi fərqlər yaranırdı. Məhz bu səbəbdən də qədim Roma hüququnu araşdırarkən *Roma hüququ və etik anlayışa* rast gəlmək mümkün deyil.

**Dissertasiyanın üçüncü fəsli “Əxlaqın hüquqla bağlı olan əsas xüsusiyyətləri: ədalət, insaf, vicdan və adət-ənənə” adlanır.** Hazırkı mövzu fəlsəfə və hüquq sahəsində, o cümlədən qanunvericilyin funksiyasında mühüm əhəmiyyət kəsb edir. Burada ***“Müasir hüquq fəlsəfəsində ədalət, insaf, vicdan və adət-ənənə meyarlarının etik, fəlsəfi və hüquqi mənası”na*** istinad edərək belə

[57] Berger A. Encyclopedic Dictionary of Roman Law. – Philadelphia: American Philosophical Society, – 1991. – p. 750.

nəticəyə gəlmişik ki, əxlaq yaxşılıq etmək, fəzilətli olmaq və kamilliyə çatmaq üçün ən əsası isə müdrik bir varlıq kimi formalaşmağımızda zəruri olan qaydalar məcmusudur; biz əxlaq vasitəsilə nəyin yaxşı, nəyin pis olduğuna dair meyar əldə edirik. Əxlaq insanın iradəsi ilə bağlı olan bir qüvvədər, yəni qəbul olunan və qəbul olunmayan əməllər; burada əsas məsələ insanin iradəsi, ağlı və əməlidir. İnsanın kamilləşməsində əxlaqın seçilmiş xüsusiyyəti olan *ədalətin* (justice) xüsusi yeri vardır: "ədalət əsil ideya və qərara alınmış bir üsuldur ki, haqqın mənasını müəyyənləşdirir, ona ehtiram və əməl olunmasını tələb edir".[58] Ədalət o vaxt bərqərar olur ki, hər hansı bir şəxs bacardığı işi yerinə yetirsin və digərlərinin işinə müdaxilə etməkdən çəkinsin. Burada ədalətlə yanaşı *insaf* (equity, fairness) və *vicdanın* (conscience) da xüsusi funksiyası vardır. Filosoflar və hüquşünas filosoflar insafı hüququn ümumi prinsiplərinə aid edərək, onun iki hissədən ibarət olduğunu bildirmişlər: *birinci,* insaf hüququn ümumi prinsiplərində xüsusi təsirə malikdir, yəni hüquqi göstərişlərin bir növ ilhamverici qüvvəsi olaraq hüquqi prinsiplərin cövhərini – əsasını təşkil edir.[59] *İkinci,* insaf müstəqil olaraq hüququn ümumi prinsipi kimi göstərilə və ya tətbiq edilə bilər.[60] İnsaf səlahiyyətli bir məfhum, yəni məhkəmə hakimiyyətində geniş səlahiyyətə malik olan, icra zəmanəti yaradan bir məfhum olaraq göstərilir.[61] İnsafın ictimai prinsipləri və səlahiyyəti dedikdə, bu, məhkəmə və hakimlərin verdiyi qərarlarla, hakimin azad düşüncəsi ilə bağlıdır; hakim tərəflər arasında heç bir fərq qoymadan düzgün qərar qəbul etməli və çıxartdığı qərarda insafa riayət etməlidir. Ancaq *vicdanın* fəlsəfi, hüquqi və ictimai prinsiplərinə gəldikdə isə vicdan daha çox daxili və ruhani hiss olaraq

---

[58] Muhəmməd Meskəviyyə ər-Razi. Əxlaqın saflaşması / R. Meskəviyyə. – Beyrut: Dar əl-Məktəbə əl-Həyat, – 1991. – s. 34, 53.

[59] White Margaret. Article. Equity-A General Principale of Law Recognised by Civilized Nations? – Queensland Uneversity of Technology Law and Justice Journal, – 2004. – pp. 105-108.

[60] Ansieh Mutii və Məsud Əlburz Vərəki. İnsaflılıq prinsipi: ədalət və insaf prinsiplərinin müqayisəli tədqiqi // – Tehran: Müqayisəli Hüquq Araşdırması, – 2018. № 3 (22), – s. 141.

[61] George, P. F. American Law in a Global Context the Basics. – Edited by Steve Sheppard, New York: Oxford University Press, – 2005. – p. 353.

yaxşı və pis əməlləri tanıdan bir məfhumdur; vicdan insanın əməl olunması zəruri olan əməllərə təhrik edir (olmalıdır), əməl olunması qadağan olan işlərdən çəkindirir (olmamalıdır).[62] Vicdan əxlaqın mühüm xüsusiyyətlərindən biri olaraq insanda olan məsuliyyət hissinin və bu məsuliyyətin necə və hansı formada yerinə yetirilməsinə nəzarət edir; yəni insan vicdan hissinə əsasən səy göstərir ki, öhdəsində olan işi ləyaqətlə, düzgün və tələb olunan formada yerinə yetirsin.[63] Vicdan psixologiya, təfəkkürlə, nəfslə bağlı olan hisdir ki, bunların hamısı birləşərək insanın yaxşı və pis əməllərə olan nisbətini müəyyənləşdirir. Ağıl və vicdana sahib olan insan daim düzgünlüyə və yaxşı əməllərə sahib olmağa çağırır, çünki insan davranışının qanunauyğunluğu iki əsas cəhətə – etika və hüquqa əsaslanır. İnsan davranışının əxlaqi meyarı (ölçüsü) vicdana söykənir; başqa sözlə, insan vicdanına görə əxlaqi bir varlıq hesab olunur. Vicdanın formalaşmasına gəlincə isə burada qanunların və qadağan olunmuş vasitələrin təsiri olduğu bildirilir. Freudun fikrincə, vicdan insanda qanunlar və qadağan olunmuş vasitələr əsasında formalaşır.[64]

Müasir hüquq fəlsəfəsində ədalət, insaf, vicdanla yanaşı *adət-ənənənin* (customs and traditions) də xüsusi yeri vardır. Adət və ənənə kütlə arasında həm əməldə (təcrübədə), həm də sözdə yayılan və daim izlənilən vərdişlərə deyilir.[65] Qeyd etmək lazımdır ki, qanunverici orqan yaranmazdan əvvəl hüquq mövcud olmuşdur; qanunverici orqan hüquq normalarını təyin etməzdən əvvəl insanlar arasında adət və ənənə formasında özünü göstərmişdir. Bəzi mənbələrin də gəldiyi nəticə məhz buna işarə edir: "hüququn qədim mənbəyi olan adət hüquq normaları olub və sonralar zəruri olan bu normalar Misir qanunvericilinyində təsbit olunmuşdur. Bu normaların bəziləri

---

[62]. Misbah Yəzdi, Məhəmməd Tağı. Əxlaq fəlsəfəsi / M. Misbah Yəzdi. – Tehran: Məlumat, – 1995. – s. 83.

[63] Paşayeva, Ə. N. Etika və hüququn nisbəti: Etik və ictimai öhdəliklərdə hüquq, ədalət və vicdan prinsiplərinin hüquqi, ictimai-siyasi funksiyası // – Gəncə: AMEA Gəncə Bölməsi. Xəbərlər Məcmuəsi. "İctimai və humanitar elmlər" seriyası "Elm" nəşriyyatı, – 2023. № 1 (5), – s. 155.

[64] Mərziyyə Asterki. Vicdanın formalaşması və davamlı olmasının necəliyi // – Tehran: Rüblik Mədəniyyət Mühəndisliyi, – 2009. № 31-32, – s. 71.

[65] Məhəmməd Moin. Lüğət kitabı / M. Məhəmməd. – Tehran: Zərrin, – 2017. – s. 1000.

sonrakı dövrlərdə də saxlanıldı”.[66] Hüquq baxımından adət və ənənə yazılmamış qaydalardır ki, ümumi, xüsusi, daimi və müstəqil olaraq insanların iradəsindən doğur və bunun yaranmasında dövlətin heç bir fəaliyyəti və rolu mövcud deyil, lakin məhkəmələrdə icra olunması üçün hökumət tərəfindən rəsmi şəkildə tanınmalıdır.[67] Hüquqşünas filosoflar adət və ənənəni hüququn, qanunun, məhkəmə prosesinin, həmçinin hüquqi doktrinanın yanında hüququn mənbələrindən biri hesab edirlər. Adət və ənənələr həm etik, həm də qanunların təsdiq edilməsi ilə vətəndaş haqlarının rəsmi şəkildə tanınmasının əsas mənbələrindən biri hesab olunur.

***Üçüncü fəslin digər paraqraflarında “Ədalət, insaf və adət-ənənə meyarlarının etik xüsusiyyətləri, oxşar və fərqli aspektləri”, “Etika və hüququn qarşılıqlı əlaqəsi və ictimai-siyasi təsirindən”*** bəhs olunur. Ədalət, insaf, vicdan və adət-ənənə etikanın hüquqla bağlı olan əsas xüsusiyyətləridir. Bu meyarlar etik xüsusiyyətlər olmaqla yanaşı hüquq elmində, hüququn bütün sahələrində bir-birləri ilə uyğun olsa da bəzən fərqli xarakter daşıyır.

Məlum olduğu kimi etikanın hüquqla bağlı olan ən əsas xüsusiyyəti ədalətdir, çünki hüququn məqsədi ilk olaraq ictimaiyyətdə ədaləti bərpa etmək və nizam-intizam yaratmaqdır. Bunlar hər ikisi (ədalət və nizam-intizam) etik göstəricidir. Ədalət və insaf arasında oxşar və fərqli aspektlərə gəldikdə isə bunu aşağıdakı bəndələrdə izah etmək olar:

a). Bəzən ədalət prinsiplərində quruluq və sərtlik müşahidə olunur. Ustadın fikrincə, “insaf qanunda quruluq və sərtliyi azaldır, bəzən isə tamami ilə aradan aparır, insanların səlahiyyətli nümayəndələr barədə (hakim, vəkil) yanlış düşüncəsində dəyişiklik edir və insanın inamını özünə qaytarır”.[68]

b). Mühüm bir məsələni nəzərə almaq lazımdır ki, məhkəmə

---

[66] Məlikova M. Nəbiyev E. Xarici ölkələrin dövlət və hüquq tarixi / M. Məlikova, E. Nəbiyev. – Bakı: Elm və həyat, – 2005. – s. 26.

[67] Mazeaud L, Jean et Chabas Francois; par Chabas François. Leçons de droit civil, İntroduction a l’etudedu droit, t 1, v.1, 12 ed. – Paris : Montchrestien , – 2000. – p. 85.

[68] Katuzian N.Ə. Hüququn prinsipləri: ümumi nəzəriyyə /N.Ə. Katuzian. – Tehran: Nəşriyyat şirkəti, – 2015. – s. 582-583.

sisteminin və hakimlərin ədalətə meyli insafdan daha çoxdur, yəni onlar daha çox ədalətə əsaslanırlar nəinki insafa. Çünki məhkəmələr və hakimlər üçün məsələnin həllinin *insaflı* olduğunu söyləmək çətindir və bunun ancaq *qanuni yolla* həll olduğunu söyləməklə özlərini doğrultmağa çalışırlar. Filosofların da gəldiyi əsas nəticə bundan ibarətdir ki, hüquqşünas mənsub olduğu səlahiyyətindən və elmi potensialından məharətlə istifadə edərək çalışmalıdır ki, hüquqla bağlı olan quru, sərt və mürəkkəb qaydaları ədalətə uyğunlaşdırsın.[69]

c). Ədalət və insaf arasında olan oxşar və fərqli məsələlərdən bəhs edərkən Con Ravlsın (John Rawls: 1921-2002) fikrlərinə diqqət etmək maraqlı olardı. Con Ravls ədalət və insaf arasında olan oxşar və fərqi belə izah edir: "ədalət düşünülmüş formada insaf olaraq ilk növbədə ədalətlə uyğunluq təşkil edir, lakin bu o demək deyildir ki, ədalət və insaf ikisi də eyni məfhumdurlar; ədalət prinsipləri razılaşmanın və ya insaflı səyin nəticəsində əldə olunur".[70]

İslam dinində insaf və ədalətin nisbəti, oxşar və fərqli cəhətlərinə gəlincə isə İslam dini baxımından insaf və ədalət bir sıra məsələlərə şamil olunur ki, bunlardan bəzilərinə işarə edirik:

*1. İslam dini müsəlmanlarla düşmənçilik edən insanlarla (kafir) insafla və ədalətlə rəftar olunmasını təkid edir:* "Allah-Təala dinə görə sizinlə vuruşmayanlara və sizi yurdunuzdan qovmayanlara yaxşılıq etməyi, insaf və ədalətlə davranmağı qadağan etmir. Sizə zərər verməyən insanlarla (din müxalifləri ilə) insafla və ədalətlə rəftar edin. Çünki Allah-Təala insaf və ədalət sahiblərini sevər".[71]

*2. İnsafa və ədalətə riayət olunması təkid olunur:* "Elə ki, insanlar arasında qərar qəbul etdiniz, ədalətə riayət edin".[72]

*3. Qurani-Kərim yəhudilərlə və xristianlarla münasibətdə insaflı və ədalətli olmağı bildirir:* "əhli kitab arasında elələri vardır

[69] Bahaəddin Xurrəmşahi. Din və etika, mədəniyyət və din: dini ensiklopediyanın seçilmiş məqalələri / X. Bahaəddin. – Tehran: Tərh-e nu, – 1995. – s. 361.

[70] Con Ravls. Ədalət nəzəriyyəsi / R. Con. – Fars dilinə tərcümə edən: Seyid Məhəmməd Kamal Sərvəryan, Mürtəza Behrani. Tehran: Mədəniyyət və Sosial Araşdırmalar İnstitutu, – 2009. – s. 44-45.

[71] Qurani-Kərim, 60/8. (Dissertasiyada və avtoreferatda olan bütün ayələrin tərcüməsi dissertasiya müəllifinə məxsusdur).

[72] Qurani-Kərim, 4/58.

ki, bunlar haqq və iman uğrunda qiyam (mübarizə) edər, gecələr ilahi kəlamları oxuyar və səcdə edərlər”.[73]

*4. Kitab əhlinə qarşı insaflı və ədalətli olmaq tövsiyə olunur.* Qurani-Kərimdə “Tövrat” və “İncil”in nazil olması, müsəlmanlar tərəfindən qəbul və etiqad olunması insaf və ədalətin göstəricisidir: “Allah-Təala bu kitabı (Qurani-Kərimi) sənə tədricən haqlı olaraq nazil etdi. Bu, özündən əvvəlki kitabların (Tövrat və İncil) nazil olmasını təsdiq edən kitabdır”.[74]

5. *Həyat yoldaşları arasında insaf və ədalətə riayət olunması*: “Əgər həyat yoldaşlarınız arasında insaf və ədalətə əməl edə bilməyəcəyinizdən qorxursunuzsa, onda bir həyat yoldaşı ilə kifayətlənin”.[75] İslam dini təkcə müsəlmanlara deyil, həm də qeyri-müsəlmanlara qarşı insaflı və ədalətli olmağı tövsiyə edir ki, bütün bunlar hüquq, etika və əxlaq normalarının bir-birinə təsiri və nisbətidir.

Adət və ənənənin etik xüsusiyyətləri, oxşar və fərqli cəhətləri dedikdə, burada daha çox *mənəvi fərqin* olduğu göstərilir; ənənə bütün hallarda (zəruri şərtləri çıxmaqla) adətlə bağlıdır; adət dedikdə təkcə sosial vərdişlər deyil, həm də qaydalar nəzərdə tutulur, ancaq ənənə ümumi məfhum olaraq təqdim olunur. Əksər hallarda, müəyyən bir mühitdə ənənə zaman keçdikcə hər hansı bir qaydanı yaradır və həmin qayda tədricən inkişaf edərək adətə – ənənəyə çevrilir. Məhz buna görə də adət bir çox hallarda qayda və vərdiş – ənənə olaraq göstərilir. Ənənədən fərqli olaraq adətdə vəzifə və öhdəçilik qapalıdır, yəni açıq-aşkar özünü göstərmir və bu, proses əsnasında yerinə yetirilir. Təbii ki, adət və ənənənin oxşar və fərqli olmasına baxmayaraq, bunların hamısı hüquq və etika arasında olan nisbətin formalamasında əsas mənbələrdən hesab olunur.

***“Etika və hüququn qarşılıqlı əlaqəsi və ictimai-siyasi təsirin”dən*** bəhs edərkən səy göstərmişik ki, ilk olaraq etika və hüquqla bağlı olan əxlaq məfhumunun növlərini müəyyənləşdirək. Bunlar ibarətdir: ən üstün əxlaq, ictimai əxlaq və dövlət əxlaqı. Əgər hər hansı bir insan *ən üstün əxlaqı* əsas götürürsə, onda əxlaq gərək

---

[73] Qurani-Kərim, 3/113.
[74] Qurani-Kərim, 3/3.
[75] Qurani-Kərim, 4/3.

insanın iradəsindən daha üstün keyfiyyətlərə malik olsun. Ən üstün əxlaqın əsas hədəfi budur ki, şəxsin vəzifələrini təyin edir və mübahisələrin qarşısını alır. Ancaq *ictimai əxlaqa* gəldikdə isə bu, adət-ənənə barədə məlumatlı olmaq deməkdir. Bu əqidə tərəfdarları qəbul etdiklərini etika və qəbul etmədiklərini isə etikadan kənar hesab edirlər. Bu yanaşmanın yaxşı tərəfi ondan ibarətdir ki, etika ilə bağlı olan məsələlər yeni bir vəziyyət alır, yəni daim yenilənir. Əxlaqın digər növü olan *dövlət əxlaqı* isə ictimaiyyətlə bağlı olan məsələləri qəbul etməklə bağlıdır.

**Dissertasiyanın dördüncü fəsli "Hüquq və etikanın qarşılıqlı əlaqəsi"dir.** Tədqiqatın bu fəslində ***"Hüquq və əxlaq qaydalarında oxşar və fərqli cəhətlər", "Etik və hüquqi məsələlərdə ədalətin meyarı"*** təkcə fəlsəfi deyil, həm də hüquqi aspektdə tədqiq olunur. İlk olaraq qeyd etmək lazımdır ki, əxlaq qanunların icrasında baş verən hər hansı bir nöqsanı aradan qaldırmaqla insana xas olan üstün dəyərlərə yol açır ki, bu, hüquq qaydalarında tələb olunan əsas şərtlərdən biridir. Məhz belə bir vəziyyətdə hüquq və əxlaq qaydalarında oxşar və fərqli cəhətlər yaranır. Filosoflardan bəziləri hüquq və əxlaq qaydalarında oxşar və fərqli aspektlərdən bəhs edərkən məqsədə çatmağın yolunu əxlaq qaydalarına riayət etməkdə, digər hissəsi isə insanın kamilləşməsində axtarmışlar. Əxlaq insanın üstünlüklərə (fəzilət) çatması üçün təsirli, səmərəli qayda və normalardan ibarətdir. Hüquq öhdəsində olan səlahiyyətdən istifadə etməklə insanın yaşamasını, malik olduğu mülkü və azadlığını təcavüzkarlardan qoruyur, lakin əxlaq qaydaları (normalar) ilk mərhələdə insanları müdrik olmağa və pisliklərdən qurunmağa istiqamətləndirir. Hüququn əsas hədəfi insanların sosial rifahıdır ki, bu da dövlət tərəfindən tənzimlənir və hüquq qaydaları vasitəsilə təmin edilir. Lakin əxlaqın son hədəfi əbədi səadət və mənəvi kamillikdir ki, onun əhatə dairəsi ictimai məsələlərdən daha genişdir. Belə olan halda əxlaq və hüquq arasında qarşılıqlı əlaqə yaranır, lakin bəzi hallarda ayrılığın olması da mümkündqür. Hüquq qaydaları məcburidir və hüquqla bağlı olan öhdəliklər hətta insanlar qəbul etməsələr belə bunlara riayət olunması məcburi hesab olunur, ancaq etika ilə bağlı olan vəzifələr məcburi deyil, bəlkə bu insanda mövcud olan daxili qüvvələrlə (ədalət, insaf, vicdan, şücaət, həya və s.)

bağlıdır və elə buna görə də məcburi hesab oluna bilməz.

***“Etik və hüquqi məsələlərdə ədalətin meyarı”*** dedikdə isə unutmamalıyıq ki, ədalət elə bir məfhumdur ki, insan şüurunda və dilində yaranmazdan əvvəl də mövcud olmuşdur. Bu məfhumu şərh etmək üçün nə dildə sözlər var idi, nə də dəqiq mənası aydın deyildi, lakin tarixin sonrakı dövrlərində ədalət termin olaraq tanınmışdır. Filosoflara görə ədalət dəyərlərin ən yaxşı meyarı, həyatın ən mühüm hədəfidir; ədalətsiz yaşamaq mümkün deyil, hər hansı bir məsələdə ümumi bir norma işlənərsə, digər bir yerdə həmin vəziyyətlə işlənməsə bu, ədalətsiz hesab olunur, yəni həmin ümumi norma öz dəyərindən ədalətsiz nəzərə çarpır. İradəyə, xasiyyətə, insan təbiətinə (instinkt) aid olmayan əməllər (istər yaxşı, istər pis əməllər olsun) hər hansı bir istək və meylə aid deyilsə, bu əməllər etik xüsusiyyət hesab olunan bilməz və burada ədalətin meyarını müəyyənləşdirmək də çətindir. Ədalətin meyarına gəldikdə isə ədalət etikaya aid olan xüsusi bir məfhumdur. Ədalətin qaydaları fitri (təbii), sabit deyil və onu müəyyənləşdirmək üçün təkcə ağılın gücünə söykənmək olmaz; burada dini etiqadlar, hiss və duyğular da xüsusi təsirə malikdir.

Ancaq İslam hüququna əsasən ədalətin meyarına diqqət etsək, məlum olur ki, ilahi quruluşların sonuncusu islam hüquq quruluşudur və bu quruluş Qurani-Kərimə, Sünnəyə, Ağıla və İcmaya istinad edir. İslam hüquq quruluşları ilk növbədə *dinə və ruhaniyyətə* əsaslanır; yəni islam hüquq quruluşu ilahi və dinidir. Buna görə ki, onu ilahi tərəfindən seçilmiş peyğəmbər gətirmişdir, nəinki adi rəhbərlər. İslam hüquq quruluşunun digər xüsusiyyətlərindən biri də *reallığa əsaslanan, çox əhatəli və ictimai olmasıdır*. Bu quruluşda qanunverici Allah-Təaladır ki, insan varlığının bütün kateqoriyaları barədə (yəni insanın elminə, kainatla əlaqəsinə və s.) tam elmə malikdir. Bu quruluşun digər xüsusiyyəti *tam və kamil* olmasıdır; yəni islam hüququnun real olması onun tam və kamil bir hüquq olmasına dəlalət edir. İslam hüquq quruluşunun digər mühüm xüsusiyyətlərdən biri də *birlik və əməkdaşlığa* önəm verməsidir.[76] Hüquq sistemində birlik və əməkdaşlığa əsaslanan hüquqi quruluşun müxtəlif qaydaları bir-birini

[76] Abdullah Cavadi Amuli. İslamda haqq və vəzifə /A. Abdullah Cavadi. – Tehran: Əsra, – 2013. – s. 210, 225.

tamamlayır. Bu sistemlər toplusu islam dünyagörüşünə, həmçinin islamın ictimai və şəxsi quruluşlarına istinad edərək vahid bir sistemdə birləşir.

***Dördüncü fəslin digər paraqrafları "Müasir filosof, moralist və hüquqşünas filosofların (legal philosophers) əsərlərində ədalət anlayışı", "Ədalət, insaf, vicdan, adət-ənənə məfhumlarının dövlət və hüquq nəzəriyyəsində yeri"*** adlanır. Hazırkı paraqraflarda müasir filosof, moralist və hüquqşünas filosofların əsərlərinə istinad edərək ədalət anlayışının təkcə fəlsəfi, hüquqi, ictimai-siyasi aspekvtlərini deyil, həm də digər üstün və fərqli xüsusiyyətlərini tədqiq və təhlil etmişik. Baxmayaraq ki, mövzu müasir dövrlə bağlıdır, lakin səy göstərmişik ki, müasir dövrlə yanaşı modern (yeni) dövrə əsasən ədalət anlayışına qısa bir nəzər salaq. Bu dövrdə ədalət anlayışını ilk dəfə tərif edən ingilis filosofu Tomas Hobbes olmuşdur. O, ədalətdən bəhs edərkən özündən əvvəlki mütəfəkkirlətdən fərqli olaraq yeni bir konsepsiya təklif etməsədə, ədalət anlayışı ilə bağlı terminoloji fikirlərini irəli sürmüşdür. O, *"Leviafan"* (Thomas Hobbes: Leviathan, 1651) adlı əsərində təbiətin üçüncü qanunu adlandırdığı ədaləti belə tərif edir: "ədalət anlayışı, yəni insanlar bağlanmış müqavilələri icra edirlər".[77] Hobbesin nəzərində ədalət təkcə haqq və qanunlarda deyil, ən əsası ictimai-siyasi məsələləri də əhatə edir. Bu sırada təkcə Hobbes deyil, Leybnits də (Gottfried Wilhelm Leibniz: 1646-1716) ədalət barədə yeni bir konsepsiya deyil, xüsusi ifadələrlə kifayətlənmişdir. Leybnitsin nəzərində ədalət anlayışı müdriklik və yaxşılıqdan başqa bir şey deyil: "başqalarına qarşı müdrik və xeyirxah olmaq digərlərinin də buna sövq olunmasına səbəb olur".[78] Ədalət anlayışı barədə Con Sturatun fikirlərinə də diqqət etsək faydalı olardı. Məşhur ingilis filosofu, siyasi iqtisadçısı Mill Con Sturat (John Stuart Mill: 1806-1873) ədaləti sadə bir formada tərif edir: ədalət *"qanuna uyğunluq"* (conformity to law), ədalətsizlik isə "*qanunu pozmaq"* (disturb of law) deməkdir. Ədalət anlayışından bəhs edərkən ingilis

---

[77] Thomas Hobbes. Leviathan. – ed. by C. B. Macpherson, Harmondsworth: Penguin Books, – 1968. – p. 202.

[78] Gottfried, Wilhelm Leibniz. Leibniz: Political Writings. – Editor Patrick Riley. Cambridge University Press, – 1988. – pp. 53-57.

filosofu və iqtisadçısı *Henri Sidqvik* (Henry Sidgwick:1838-1900) ədaləti iki mühüm hissəyə ayırır: ədalət geniş mənada qanunun aliliyini bərqərar etmək, digəri isə bütün fəaliyyəti sözügedən qanuna uyğunlaşdırmaq deməkdir. Onun fikrincə, ədalət var-dövlət, nüfuz və ya hər hansı digər xüsusiyyətlərə görə insanlar arasında ayrı-seçkilik qoyulmadan qanunun tətbiqidir.[79] Ümumiyyətlə, fikir ayrılığına baxmayaraq ümumi nəticə o qədər də fərqli deyil, yəni ədalət həm hüququn, həm də etikanın əsas funksiyası olaraq qəbul olunur.

***"Ədalət, insaf, vicdan, adət-ənənə məfhumlarının dövlət və hüquq nəzəriyyəsində yeri"*** dedikdə, yəni dövlət etika ilə bağlı olan xüsusiyyətləri özündə birləşdirir. Buna görə də dövlət və hüququn vəzifələri dedikdə etik dəyərləri unutmaq olmaz, çünki dövlət və hüququn vəzifə və öhdəlikləri etik qaydalara əsasən yerinə yetirilir. Əgər hər hansı bir məsələdə əxlaq normaları unudulsa və ya nəzərə alınmasa, ictimai hədəfə çatmaq mümkün olmayacaq.

Dövlət və hüquq nəzəriyyəsində ən mühüm məsələlərdən biri də Con Ravlsın ədalət nəzəriyyəsində (John Rawls: A Theory of Justice) sosial ədalət prinsipləridir. Amerikalı siyasi filosof və moralist Con Ravlsın nəzərində sosial ədalət anlayışı və onun prinsipləri fərqli xarakter daşıyır. O, ədalət məfhumunun sosial prinsiplərini siyasi fəlsəfənin əsası hesab edərək fərdi ədalət, qanunun ədaləti və sosial qurumların ədaləti arasında fərqlərin mövcud olduğunun bildirmişdir.[80] Ravls sosial ədalətdən bəhs edərkən ilk olaraq "ayırıcı ədalət" (allocative justice) və "bölgülü ədalət" (distribute justice) arasında fərqin olduğunu bildirərək bölgülü ədalət nəzəriyyəsini şərh etmişdir. Ravlsın fikrincə, *ayrıcı ədalət* yaxşı şeyləri insanların məlum ehtiyac və istəklərinə uyğun olaraq onlar arasında bölünməsini tələb edir. Bunun əksinə olaraq *bölgülü ədalət* isə yaxşı və arzu olunan şeylərin meydana gəlməsində rol oynamış şəxslər arasında bölüşdürülməsidir ki, onların da hər biri bölgüdən əvvəl öz payında qanuni iddiaya malikdirlər. Ravlsın fikrincə, sosial həyat fərdlər arasında əməkdaşlıq sistemidir və hamı sosial həyatın

[79] Henry Sidgwick. The Methods of Ethics. – Hackett Publishing Company; 7th edition, – 1981. – pp. 267 & 268.

[80] John Rawls. A Theory of Justice. – Oxford: Oxford University Press, – 1999. – pp. 6 & 7, 53 & 54.

faydalarında şərikdirlər, burada hər bir fərdin payı vardır. Sosial həyatda mövcud olan faydaların bölüşdürülməsi məhz *bölgülü ədalətin* əsas məsələlərindəndir.[81]

Dövlət və hüquq nəzəriyyəsində ədalətlə yanaşı *insaf, vicdan* və *adət-ənənənin* də xüsusi yeri vardır. Beynəlxalq hüquq və etika üzrə mütəxəssislər ədalət prinsiplərindən biri olan insafı *Beynəlxalq Ədalət Məhkəməsi Əsasnaməsinin* 38-ci maddəsinin 1-ci bəndi olduğunu göstərirlər. Bu barədə Almaniyanın beynəlxalq hüquq üzrə hüquqşünası *Corc Şvarzenberger* (Georg Schwarzenberger: 1908-1991) yazır: "tətbiqi araşdırmalar onu göstərir ki, ədalət, insaf və etikanın digər üstün xüsusiyyətləri dünyanın əsas hüquq sistemlərində hüququn ümumi prinsipləri kimi tanınır. Beynəlxalq hüquqda bu üstün xüsusiyyəti, yəni insafı anlamaq, dərk etmək və ona diqqət etmək *Beynəlxalq Ədalət Məhkəməsi* tərəfindən bir vasitə olaraq istifadə olunur".[82] Burada *vicdanın* təsirinə gəldikdə isə vicdan insanda saf və təmiz duyğular yaratmaqdan əlavə həm də hüquq və etik normalarda əsas göstəricidir. Vicdan təkcə fərdin ehtiyaclarını qarşılamaq və aradan qaldırmaq üçün deyil, bəlkə insanların daha yüksək səviyyədə yaşaması üçün hüquq normalarında mövcud olan çox güclü və təsiredici bir qüvvədir. Müəllifin yazdığı kimi: "vicdan insanın şüurlu bir varlıq olduğunu kütləyə aşılayır və hüququn təməl rolunu oynayır.[83] Vicdanın üstün cəhətlərindən biri də budur ki, münasibətlərdə özünü araşdırır və mühakimə (self-judgment) etmək gücünə malikdir. Hüquqi sistemdə, həmçinin vətəndaş hüququnun formalaşmasında insaf və vicdanla yanaşı *adət-ənənənin* də xüsusi funksiyası vardır, çünki bütün hüquq normaları insanın inkişafı, təkmilləşməsi, ictimai-siyasi, mədəni haqlarını tanıması, həm şəxsi, həm də ictimai həyatda layiqli bir vətəndaş kimi yaşaması üçündür. Burada milli dəyərlər mövcuddur; milli dəyərlər cəmiyyətin mədəniyyəti, adət-ənənələridir ki, vətəndaş hüququnun

[81] İbid, – pp. 73-77.

[82] Schawrnzenbergr G. Equity in International Law: İts Growth and Development. – Yearbook of World Affairs, – 1972. – p. 346.

[83] Məhəmməd Ağayan Hüseyni. Hüququn yaranmasında "vicdan"ın rolu // – Tehran: Hüquqşünaslıq Jurnalı, – 2020. № 12 (3), – s. 53.

formalaşmasında, daha parlaq və inkişaflı olmasında, hətta dəyişməsində hədsiz təsirə malikdir.

**Dissertasiyanın beşinci fəsli "Hüququn fəlsəfəsində əxlaq və qanun" adlanır.** Tədqiqatın bu fəslində səy göstərmişik ki, əxlaq və qanun anlayışını, insan və qanunun nisbətini, qanun və təbiət arasında olan üstün cəhətləri, insan üçün zəruri olan məsələləri, həmçinin ictimai funksiyanı izah edək. ***"Pozitiv hüquq nəzəriyyəsində əxlaq və qanun anlayışı", "Qanun və onun növləri: təbii (ilahi) və pozitiv (bəşəri)"*** dedikdə ilk olaraq qeyd etməliyik ki, uzun bir tarixi olan qanuna bütün dövrlərdə itaət olunmuşdur; insanlar qanuna itaət etməyi etik, ictimai vəzifə hesab edirdilər və çalışırdılar ki, qanunu insan davranışlarına nəzarət edən bir sistem olaraq yaratsınlar. Əxlaq və qanun anlayışını, ictimai-siyasi təsirini, bunların bir-birinə nisbətini və əlaqəsini müəyyənləşdirmək üçün təkcə filosoflar deyil, hüquqşünaslar da iki dəstəyə ayrılmışlar: *birinci qrup* əxlaq və qanun arasında olan nisbəti qəbul etmiş, qanunun kökündə etik dəyərlərin mövcudluğunu təkidlə bildirmişlər; ikinci qrup isə əxlaq və qanun arasında olan əlaqəni rədd etmişlər. Birinci qrupun rəyinə əsasən iki cür qanun mövcuddur: təbii qanun (natural law), yəni etik normalarla bağlı olan qanun və ya ən yaxşı qanun; digəri isə tədqiqi – pozitiv qanundur (positivie of law) ki, bu qanunun kökləri təbii qanunla bağlıdır. Bu normaların qanuni və ya etibarlı olması üçün təkcə qanunverici orqanın iradəsi və pozitiv normaların ictimai cəhətdən qəbulu kifayət etmir, bəlkə bu normaları əxlaqla, həmin təbii qanunla uyğunlaşdırmaq vacibdir. Ancaq *ikinci qrupun* gəldiyi nəticə isə bundan ibarətdir ki, pozitiv qanun müəyyən bir cəmiyyətdə qəbul olunmuş normalar məcmuəsidir ki, onun yaranması qanunvericiliklə bağlıdır, nəinki etik normalarla; pozitiv normalar qanunverici orqanın iradəsi və ictimai razılaşmaya əsasən qanuna çevrilir və legitimlik qazanır, bir növ qanuniləşir. Pozitiv normalar etik dəyərlərlə əlaqəsi olmadan belə mötəbər qanun hesab oluna bilər. Bu qurupun nəzərində pozitiv qanunlar etik dəyərlərə deyil, hakimiyyətin iradəsinə və ümumi rəyin razılığına əsaslanır. Məhz buna görə də birinci qurupun nəzəriyyəsi *"Təbii qanun nəzəriyyəsi"* (Theory of natural law), ikinci qrupun nəzəriyyəsi isə *"Pozitiv hüquq nəzəriyyəsi"* (Theory of

positive right) adlanır.[84]

Pozitiv qanuna gəlincə, təbii qanun nəzəriyyəsinin rəqibi hesab olunan pozitiv qanun nəzəriyyəsi bəşəri qanun da adlandırılır. Pozitivizm tərəfdarları təkidlə bildirilər ki, pozitiv qanun nə forma, nə məzmun baxımından təbii qanuna uyğun deyil.[85] Filosofların rəyinə əsasən pozitiv qanun nəzəriyyəsini bir neçə dövrə ayırmaq olar ki, onlardan biri ənənəvi pozitivizm dövrüdür. Bu dövr ingilis filosofu və hüquqşünası *Ceremi Bentamın* və ingilis hüquq nəzəriyyəçisi, hüquqşünas filosof *Con Austinin* əsərlərinə aiddir. Bentam bəşəri qanun nəzəriyyəsini "*Ümumi qanun"* (General of Law), Con Austin isə *"Hüquq fəlsəfəsinin məhdudlaşdırılması"* (The Province of Jurisprudence Determined) adlı əsərlərində qeyd etmişdir.[86] Austin poizitiv qanun nəzəriyyəsindən bəhs edərkən daha çox diqqəti etika (əxlaq) və qanunun ayrıması məsələsinə çəkmişdir. O, qanunu tərif edərkən onu *"əmr nəzəriyyəsi"* (command theory) adlandırmışdır: "qanun ictimaiyyəti idarə edən əmrlərdən ibarətdir".[87] O, təbii qanun tərəfdarlarının əksinə olaraq, əxlaq və pozitiv qanun arasında heç bir zəruri bağlılığın olmadığını bildirmişdir; ola bilər qanun əxlaqa zidd olsun, ancaq hüquq baxımından mötəbərdir.

Pozitiv qanun nəzəriyyəsinin digər tanınmış nümayəndəsi, ingilis hüquqşünas filosofu *Herbert Hartdır*. O, Austinin radikal pozitivist baxışları ilə razılaşmayaraq onun bu məsələyə yanşmasını tənqid etmişdir. Hart pozitiv qanun nəzəriyyəsinin tərəfdarı olaraq, qanunu əmr (command) adlandırılaraq tərif olunmasını qəbul etməmişdir. Onun fikrincə, Austin və onun məsləkdaşları bu məsələyə diqqət etməmişlər, yəni rəsmi orqanlar tərəfindən verilən əmrlər özü-özlüyündə mötəbər və məcburi deyil, bəlkə verilən əmrlərin mötəbər olması daha üstün normalarla bağlıdır.[88] Hartın

---

[84] Əbul Qasim Fənai və Davud Nucavan. Hüquq fəlsəfəsi baxımından qanunvericilikdə etikanın rolu // – Tehran: Müqayisəli Hüquq Jurnalı, – 2020. № 2, – s. 274.

[85] Tebbit Mark. Philosophy of Law: An Introduction. – London: Routledge. Oxford University Press, – 2005. – p. 10.

[86] Brian Biks. Hüquq nəzəriyyəsi lüğəti / B. Brian. Fars dilinə tərcümə edən: Məhəmməd Rasex. – Tehran: Ney, – 2015. – s. 54-56.

[87] David Lyons. Ethics and the Rule of law. – New York: Cambridge University Press, – 1984. – p. 37.

[88] Dworkin, M. R. The Model of Rules. – The University of Chicago Law Review,

fikirlərindən belə nəticəyə gəlmək olar ki, o, çalışır ki, pozitiv qanun nəzəriyyəsini cəmiyyət tərəfindən qanunvericilik üçün rəsmi olaraq tanınan meyarlarla uyğunlaşdırsın. O, fikrini əsaslandırmaq üçün qanunun hüquqi qüvvəsini əxlaq normalarından fərqləndirir və belə hesab edir ki, sosial qaydaları pozan qanuna əməl olunmamalıdır. Pozitivizm tərəfdarlarının iddialarına baxmayaraq bəzi filosof və hüquqşünas filosoflar təbii qanunun pozitiv qanuna təsirini təkidlə bildirmişlər. *Tomas Hobbesa* görə sonradan yazılan qanunun xususi bir növü olan bəşəri qanun müstəqi və ya qeyri-müstəqil təbii qanundan götürülməlidir. Buna görə də əgər bəşəri qanun təbii qanuna zidd olarsa onu qanun adlandırmaq olmaz və bu, qanundan kənar hesab olunur; heç bir qanun, hətta müqəddəs qanun (vəhy yolu ilə insana çatdırılır) belə təbii qanuna zidd ola bilməz. Ona görə ki, əgər Tanrı əxlaq prinsiplərinə zidd olan qanunu təsdiq edərsə, bu halda ziddiyyətlərlə qarşılaşacağıq.[89]

Təbii qanun nəzəriyyəsinin görkəmli nümayəndələrindən biri olan Hollandiyalı hüquqşunas, siyasi filosof və dövlət xadimi Hüqo Qrotsidir. Hüqo təbii qanunu rasional və dini (transsendental) üsullarla əlaqələndirir. Onun nəzərində təbii qanun ilahi varlığa əsaslanır, baxmayaraq ki, təbii qanun dini üsullarla bağlıdır, bu, heç də dini inanclarla bağlılıq demək deyildir.[90] Təbii qanun nəzəriyyəsinin dünyəvi və prosessual formasını müdafiə edən amerikalı hüquqşünas filosof *Lon Fuller* (Lon Luvois Fuller: 1902-1978) olmuşdur. O, təbii qanunu "*qanuni ədalət*" (legal justice) və ya "*qanuna uyğun ədalət*" (justice according to law) hesab edir. Bu nəzəriyyəyə əsasən əxlaq baxımından qəddar məzmunlu bir qanunun icrası hətta mahiyyət etibarilə müəyyən bir halda nəticəsi ədalətsiz olaraq düşünülsə belə bu, prosessual ədalətli hesab olunur.[91]

---

– 1967. – vol., 35, No. 1. pp. 17- 22.

[89] Həsən Cəfəri Təbar. Hüquq fəlsəfəsinin şərhi / C.T. Həsən. – Tehran: Nəşriyyat şirkəti, – 2010. – s. 45-46.

[90] Largee Jacqueline. Grotius: Natural Law and Natural Religion. In book: Religion, Reason and Nature in Early Modern Europe. – Dordrecht: Kluwer Academic Publishers, – 2001. – vol. 180, pp. 20-22.

[91] Brian Biks. Hüquq nəzəriyyəsi lüğəti / B. Brian. Fars dilinə tərcümə edən: Məhəmməd Rəsex. – Tehran: Ney, – 2015. – s. 66.

Təbii qanunun pozitiv qanuna təsirindən bəhs edən digər tanınmış Avstraliyalı hüquqşünas filosof *Con Finnisdir* (John Finnis: 1940). Con Finnis pozitiv qanundan fərqli olaraq təbii qanunun məzmununda əxlaq normalarının təsirinin çox olduğunu təkidlə bildirmişdir. *"Əsas yaxşılıqlar" (basic goods)* və *"əsas şərtlər" (basic conditions)* təbii qanunun prinsiplərini (principles of natural law) ifadə edir ki, bu, bəşəri (pozitiv) qanunda da özünü göstərir.[92] Əlbəttə, təbii və pozitiv qanunda fikir müxtəlifliyinin olması labüddür, lakin fikir müxtəlifliyinə baxmayaraq bəzi ümumi prinsiplər bu doktrinanın əsasını təşkil edir: *birincisi,* bu əsas prinsiplər subyektiv deyil, obyektivdir; *ikincisi,* "təbii qanun" sözündən də göründüyü kimi dünyanın təbiəti, insan fitrəti və ya bu ikisinin birləşməsi ilə bağlıdır; *üçüncüsü,* təbii qanun insan tərəfindən yaradılmayıb ki, dəyişdirilsin, bəlkə bu, insan təbiətinə və ya dünyanın təbiətinə əsaslanan, daha yaxşı həyat üçün *insan ağlının* təqdim etdiyi mükəmməl bir sənəddir.

***Tədqiqatın digər paraqrafları "Əxlaq və təbii qanun (natural law) arasında qarşılıqlı əlaqə", "Əxlaq və qanunun ictimai-siyasi prinsipləri"*** adlanır. Əxlaq və təbii qanun arasında qarşılıqlı əlaqə dedikdə, yəni bu iki məfhum (əxlaq və qanun) hər ikisi insan varlığını (ruh və cism) dəyərləndirmək üçün ilahi tərfindən insana verilən yüksək imtiyazdır. Bu imtiyazın ruhi və cismi tərəfləri olduğu kimi təbii tələbləri də mövcudur. Təbii qanuna əsasən əxlaq mövcud olan təbii varlıqların bir hissəsidir. Əxlaq təbii qanunda daşıyıcı funksiyadır; təbii qanunun bütün tələblərində əxlaq normalaına təkid olunur.

Xristian dinində etika və təbii qanunun nisbətinə gəlincə isə Xristian dini zühur etdikdən sonra təbii qanuna olan maraq daha da artdı; təbii qanuna əsaslanan etik normalar xristian dünyagörüşünə uyğunlaşdırıldı. Xristian dininə əsasən Tanrı hər şeyə qadir, hər şeyi bilən və hər bir şeyin yaradıcısı olan mütləq bir varlıqdır. Tanrı öz iradəsini bizə həm vəhy (a divine revelation), həm də təbii qanun vasitəsilə bildirir. O, vəhy vasitəsilə bizə birbaşa və açıq şəkildə bəzi

---

[92] Finnis John. Natural Law and Natural Rights. – Oxford: University Press, – 2011. – pp. 85-89.

şeyləri deyir, əks halda biz bunları məhdud düşüncəmizlə və onun köməyi olmadan başa düşə bilmərik. Xristian dinində etika və təbii qanunun nisbəti Tomasın *"Akvinatın əxlaq nəzəriyyəsi"* (Aquinas's moral theory) adlı əsərində ətraflı izah olunur. Məşhur xristian mütəkəllimi (Christian theologian) və filosofu Tomas Akvinat əxlaqı *"insan əməllərinin qaydası"* (the order of human actions) kimi tərif edir. Onun etikaya əsaslanan təbii qanun nəzəriyyəsi məhz teoloji məkanda qaldırılmışdır. Tomas hesab edir ki, insan özü ilə digər məxluqlar arasında ümumi təbiətə əsaslanaraq, yaxşılığa təbii olaraq meyli vardır. Əslində onun əsas hədəfi təbii qanunu əsas götürərək, vəhy və ilahi qanunları cəmiyyətdə nəzəri aspektdə izah etmək idi; o, çalışırdı ki, vəhyin rolu və onun ağılla əlaqəsi haqqında tam dolğun bir nəzəriyyə təqdim etsin. İtaliyalı mütəfəkkir ağıl və ruh arasındakı əlaqəni müəyyən etmək üçün ənənəvi təbii qanun nəzəriyyəsini canlandırmağa çalışmışdır. O, Aristotel etikasının xristian dünyagörüşü kontekstində daha dərindən öyrənilməsi üçün təbii qanun nəzəriyyəsinin yeni formasını təqdim etmişdir.[93]

İnsan və qanunun nisbətinə gəlincə isə qeyd etməliyik ki, insan həqiqi bir varlıq olaraq əsasını ruh, törəmə prosesini isə cism yerinə yetirir. Təbii qanun bəzən insanın təbiətinə, bəzən isə fitri (zati) tələblərinə bağlıdır. İnsanın təbiətlə əlaqəsi dedikdə isə, yəni təbii qanun nəzəriyyəsində insan səadəti önə çəkilrir, çünki inasana verilən haqlar ilk növbədə ilahi tərfindən təbii olaraq verilmişdir; haqlar sonradan deyil, insan yarandığı vaxtdan onunla birlikdə yaranır. Hər bir varlıq ona mənsub olan haqlardan qanunun tələblərinə uyğun olaraq faydalanmalıdır; bu, onun təbii haqqıdır. Qurani-Kərimin bir çox ayələrində təbiətlə yanaşı bütün canlılar üçün haqlar göstərilir. Burada *yaşamaq haqqına* diqqəti yönəldək: *"intihar etməyin, Allah sizə qarşı mehribandır"* (201, 4/29); başqa bir ayə *insan ləyaqəninn toxinulmazlığını* göstərir və İslam dini insanı dəyərli bir varlıq hesab edir: *"biz insanı dəyərləndirdik"* (201, 17/70); *"Biz insanı ən gözəl şəkildə yaratdıq"* (201, 95/4) və digər ayələri nümunə göstərmək olar, bu ayələr qanun çərçivəsində insan varlığının qorunması deməkdir.

---

[93] Thomas, Aquinas S. The Summa Theologica. – Translated by Fathers of the English Dominican Province. Westminster, Md: Christian Classics, – 1981. – p. 1332.

İnsan varlığının dəyərləndirilmisi Azərbaycan Respublikasının Konstitusiyasında da (insan haqlarında) özünü göstərir. Bu haqlar arasında "yaşamaq hüququ" (maddə 27), "azadlıq hüququ" (maddə 28), "mülkiyyət hüququ" (maddə 29), "nigah hüququ" (maddə 34), "əmək hüququ" (maddə 35), "sosial təminat hüququ" (maddə 38), "sağlamlığın qorunması hüququ" (maddə 41), "təhsil hüququ" (maddə 42), "şərəf və ləyaqətin müdafiəsi hüququ" (maddə 46), "vicdaan azadlığı" (maddə 48) və digər hüquqları nümunə göstərmək olar. Bu haqq və imtiyazlar, vəzifələr kimliyindən, milli mənsubiyyətindən, dinindən, dilindən, irqindən asılı olmayaraq bütün insanlara şamildir.

***"Əxlaq və qanunun ictimai-siyasi prinsipləri"nə*** gəlincə isə qeyd etməliyik ki, hüquq normaları ictimai qruplar əsasında yaranır və təbii ki, bu qruplarda da ictimai əlaqələri qanun-qayda əsasında sahmana salmaq meylləri olur. Məhz buna görə də hüquq normaları əxlaq və qanunla birlikdə ictimai-siyasi əlaqələri tənzimləmək üçün mühüm göstəricidir. Qanunlar istər göstəriş verən (əmr), istərsə də məhdudlaşdırıcı olsun əxlaqa əsaslanır və bunu *əxlaqi qanunvericilik* (moral legislation) də adlandırmaq olar. Əxlaqi qanunvericilik seçim deyil, qaçılmaz bir zərurətdir; ədalət, bərabərlik, insaf, vicdan kimi etik xüsusiyyətlər, dövlətlə bağlı olan və qanunların insanlara şamil edilməli olduğu məsələlər əxlaqi qanunvericiliyi əks etdirir. Əxlaqi qanunvericiyilin tərəfdarları ilə yanaşı əlehdarları ilə də qarşılaşırıq. Bu, pozitiv hüquq nəzəriyyəsinin əsas tərəfdarlarından olan İsrailli hüquq, əxlaq və siyasət üzrə filosof *Jozef Raz* (Joseph Raz: 1939-2022) olmuşdur. O, əxlaq və qanunun nisbətini qəbul etməmiş, bunların fərqli olduğunu bildirmişdir. Onun nəzərində hüququn legitimliyi üç əsas elementdən ibarətdir: yol göstərici (that opens the way), institusionallıq (institutionality) və mənbələr (resources).[94]Ancaq Jozef Raz unudur ki, qanunların yaranmasında və işlənməsinmdə etik normaların mövcudluğu əsas şərtdir. Bunlar Jozef Razdan əvvəl yazılmış pozitiv qanun nəzəriyyəsində təsbit olunmuşdur.

---

[94] Raz Joseph. The Authority of Law: Essays on Law and Morality. – Oxford: Oxford Univeristy Press, – 2009. – p. 42.

Əxlaq və qanunun ictimai-siyasi prinsiplərindən bəhs edərkən, ədalətin qanunun sütunu olması xüsusilə qeyd olunmalıdır. Almaniyalı siyasətçi, hüquqşünas filosof Qustav Radbroç (Gustav Radbruch: 1878-1949) ədalətsiz qanunlardan bəhs edərkən bu barədə yazır: "bəzi qanunlar o qədər ədalətsiz və sosial cəhətdən zərərli ola bilər ki, hətta onların qanun kimi mahiyyəti də inkar edilməlidir".[95] Bu, onu deməyə əsas verir ki, qanunun mövcudluğunda ədalətin olması əsas şərtdir; ədalət qanunun sütunu olmaqla yanaşı, həm də ictimai-siyasi məsələlərdə mühüm təsirə malikdir. Məhz buna görə də ədalətlə bağlı olan məsələlərdə *qanunların legitimliyi* və *qanunların mahiyyəti* mühüm əhəmiyyət kəsb edir. Hər halda, müxtəlif fərqli yanaşmaların olmasına baxmayaraq, əldə olunan ümumi nəticə bundan ibarətdir ki, hüquq və etika, hüquq və əxlaq, əxlaq və qanun, ədalət və qanun və bunların bir-birinə olan nisbəti qanunların nəinki işlənməsində, hətta yaranmasında əsas şərt olaraq, həm də funksiya daşıyıcısıdır.

## NƏTİCƏ

**Dissertasiyanın nəticə hissəsində** tədqiqatın başlıca yekunları öz əksini tapmış, fəsillərdə irəli sürülən və tədqiq olunan mövzular mötəbər mənbələrə istinad edilməklə təhlil olunmuş, hər bir paraqrafın sonunda müəyyən nəticələr əldə olunmuşdur. Dissertasiyanın ümumi nəticəsinə gəldikdə isə qeyd etmək lazımdır ki, hazırkı tədqiqat işi hüquq və fəlsəfənin, hüquq və etikanın, hüquq və əxlaqın qarşılıqlı əlaqəsi və sintezidir. Hüquq və etika, hüquq və əxlaq normaları arasında olan bağlılıq ilk olaraq hüquq elminin olduğu kimi tanınması, öyrənilməsi, həmçinin insanın mövcud aləm barədə düşünməsi məqsədini daşıyır. Filosof səy göstərir ki, hüquqi və etik məsələləri təhlil etməklə insana mənsub olan imtiyazları göstərsin. Hüquq və əxlaq arasında oxşar və fərqli aspektlərin olmasına baxmayaraq bunların arasında sıx bağlılıq mövcuddur. Bunları nəzərə alaraq tədqiq olunan mövzulardan belə nəticəyə gəlmək olar:

- Hüquq elminin məqsədi ictimai, tarixi hadisələri, etik

---

[95] Andru Altmen. Hüququn fəlsəfəsinə giriş / A. Andru. Fars dilinə tərcümə edən: Behruz Cendeqi. – Tehran: Təhsil müəssisəsi, – 2007. – s. 116-117.

dəyərləri, həmçinin ictimaiyyət və dövlət üzərində mövcud olan qaydaların funksiyasını öyrənmək və bunu ictimaiyyət üzərində tətbiq etməkdir;

- Hüququn fəlsəfəsində ideya və dəyərlərdən bəhs olunur; "qanunlara tabe olmaq" və "qanunsuzluğa yol verməmək" (olmalıdır və olmamalıdır) prinsipləri daha çox önə çəkilir;

- Hüququn fəlsəfsini yazmaqla filosofların əsas məqsədi bundan ibarətdir ki, insanın mövcud aləm barədə olan düşüncəsi dəyərləndirilsin, çünki mövcud aləm insana məxsusdur və filosof səy göstərir ki, etik və hüquq normalarına istinad edərək insan düşüncəsinin üstünlüyünü tanıtsın.

Qeyd etmək lazımdır ki, qədim yunan təfəkküründə, xüsusilə Sokratın hüquq fəlsəfəsində ictimai-siyasi fəlsəfənin əsas prinsipləri təkcə islahedici xarakter daşımır, burada qüsur və çatışmazlıqlar göstərilməklə, bunların həlli yolları da izah olunur. İdeal dövlətdə ədalət prinsiplərinin mövcudluğuna gəlincə, bunu bir neçə bənddə şərh etmək olar:

- Ədalət dürüstlük və öz vəzifəsini yerinə yetirməkdir;

- Ədalət, yəni insanların haqqını yerinə yetirməkdir;

- Ədalət, yəni haqlı insanla dost olmaq və haqsız insanla mübarizə aparmaqdır;

- Ədalət elə bir əməldir ki, hakim təbəqənin deyil, məhz haqqı itirilmiş insanın mənafeyinə xidmət etmək deməkdir.

Bu barədə Aristotelin fikrinə gəlincə isə onun nəzərində ədalət insana verilən təbii bir haqdır, ədalət hər bir şeyin arasında mövcud olan xüsusi bir həddir və bu hədd təbii bir həddir; çünki təbiət adətən qeyri-bərabər olaraq dərk olunur, ədalət bu qeyri-bərabərliyi aradan qaldıran bir vasitədir. Onun təbii hüquq və əxlaq barədə fikirlərini aşağıdakı bəndlərdə şərh etmək olar:

- Aristotel fəlsəfəsinə əsasən təbii hüquq və əxlaq təbiətə (intense nature) əsaslanır, yəni varlıqların yaranmasında müəyyən bir hədəf və ya məqsəd mövcuddur. Elə bu səbəbdəndir ki, bütün varlıqlar öz təbiətinə uyğun olaraq mükəmməl olmağa meyllidir;

- Təbii hüquq və ədalətin qarşılıqlı əlaqəsinə gəldikdə isə Aristotelə görə ədalət səkkiz hissədən ibarətdir: *ümumi və xüsusi, bölgülü və mübadiləli (*mübadilə: əvəz etmək, dəyişdirmək, mübadilə

etmək), *mütləq və nisbi* (və ya siyasi), *təbii və qanuni*. Ədalətin bu növləri bir-birindən ayrı deyil, bir-birinə təsiri və bağlılığı vardır.

Hüquqla daha çox bağlılığı olan "ədalət", "insaf", "vicdan" və "adət-ənənə"nin funksiyasını aşağıdakı bəndlərdə müşahidə etmək olar:

- Filosofların, moralistlərin və hüquqşünas filosofların rəyinə əsasən istər qədim yunan təfəkküründə, istərsə də müasir hüquq fəlsəfəsində olsun bütün hallarda haqlarla bağlı olan məsələlər müəyyən qaydaya tabedir, ancaq ədalət müəyyən qaydaya tabe deyildir. Ədalətin məqsədi ondan ibrətdir ki, hər hansı bir şəxs ağıl və qanun əsasında haqqına sahib olsun. Təbii ki, burada təkcə ədalət deyil, *insaf* da hüquqi məsələlərin tətbiqində mühüm yer tutur;
- İnsaf istər hüquq daxilində, istər hüquqdan irəlidə, istərsə də hüquqdan fərqli və bəzi hallarda ziddiyyətli olsun, burada əsas hədəf bütün hallarda ictimai tarazlığı qorumaq, haqqı olana haqqını tanıtmaqdır;
- Ədalət prinsiplərinin qorunmasında təkcə insaf deyil, *vicdanın* da mövcudluğu əsas şərtdir.
- Vicdan cəmiyyətin dəyərləri kimi qəbul edilir və insanları daxilən qorumaq, sosial qaydalara riayət etməyə istiqamətləndirir, hətta məcbur edir. Birlik, həmrəylik və müttəfiqlik kimi qaydaların formalaşması kollektiv vicdanın təkamülü nəticəsində yaranır;
- Vicdan hakim və məhkəmə orqanlarının yaranmasında təməl rolunu oynayır; məhkəmə orqanları, onların zəruri hökmləri ağıl və şüurun köməyi ilə hakimin verdiyi hər hansı bir qərardan əvvəl tətbiq olunur.
- Ədalət prinsiplərinin qorunmasında insaf və vicdanla yanaşı *adət-ənənənin* də xüsusi yeri vardır. Nəzərə almaq lazımdır ki, qanunverici orqan hüquq normaları təyin etməzdən əvvəl insanlar arasında adət və ənənə formasında mövcud olmuşdur.
- Adət və ənənə əxlaq və qanun əsasında vətəndaş hüququnun rəsmi şəkildə tanınmasında hüququn əsas mənbəyi hesab olunur;

Burada *hüquq və etikanın qarşılıqlı əlaqəsinə* də diqqəti yönəltmişik. Bunları nəzərə alaraq hüquq və etikanın qarşılıqlı əlaqəsini aşağıdakı kimi səciyyələndiririk:

- Etika hüququn bütün mənbələrində (qanun, adət-ənənə,

hakimin göstərişi, alimlərin nəzəriyyəsi) təsirə malikdir;

- Hüquq və etikanın qarşılıqlı əlaqəsində ədalətin xüsusi yeri vardır. Ədalət etik bir meyar olaraq hüququn bütün əmr və tələblərinə nüfuz edir; ədalət etik normalara əsasən mövcud qaydalar üzərində işləyərək həm də bunları nizamlayır;

- Etik normalar qanunların icrasında baş verən hər hansı bir nöqsanı aradan qaldırmaqla, insana xas olan üstün dəyərlərə yol açır. Bu dəyərlər hüquq qaydalarında tələb olunan əsas şərtlərdən biridir və belə bir vəziyyətdə hüquq və etik qaydalarında oxşar və fərqli aspektlər yaranır;

- Hüquq və əxlaq arasında fərqli aspektlərə gəldikdə isə əxlaqdan fərqli olaraq qanunda məcburiyyət zəruridir, çünki haqlar güclü məcburiyyət əsasında xarakterizə olunur; insan hətta istəməsə belə hüququn tələblərinə riayət etməlidir.

- Təbii ki, hüquq və etikanın qarşılıqlı əlaqəsi İslam didinə mənsub olan hüquq quruluşlarında da özünü göstərir. Bu quruluş ilk növbədə *dinə və ruhaniyyətə* əsaslanır; Bu, reallığa əsaslanan, *çox əhatəli və ictimai* bir quruluşdur; digər xüsusiyyəti *tam və mükəmməl* olmasıdır; *birlik və əməkdaşlığa* önəm verməsidir.

- Müasir filosof, moralist, hüquqşünas filosofların əsərlərində ədalət anlayışına gəlincə isə qeyd etməliyik ki, filosofların nəzərində ədalət qanunların dəyərləndirilməsi və qanuniləşdirilməsi meyarıdır; ədalət qanunun aliliyini bərqərar etməli və bütün hallarda qanuna uyğun olmalıdır; ədalət qanunun inkişafına xidmət etməlidir; ədalət həm hüququn, həm də etikanın, həmçinin əxlaq normalarının əsas funksiyasıdır; ədalət qanunun əsası, ayrılmaz hissəsi, qanunun legitimliyini və məcburiliyini qoruyan əsas şərtdir; ədalətsiz qanunlar qeyri-legitim qanunlar hesab olunur.

Filosoflar əxlaq və qanun arasında zəruri əlaqənin olduğunu iddia edərək, etik normaların pozitiv qanundan daha üstün olduğunu, hətta pozitiv qanunların təbii qanunlardan qaynaqlandığını bildirmişlər. Hazırki mövzu ilə bağlı bəzi mühüm nəticələri aşağıdakı bəndlərdə görmək olar:

- Filosofların rəyinə əsasən iki cür qanun mövcuddur: təbii qanun (natural law), yəni etik normalara əsaslanan qanun; pozitiv qanun (positivie of law). Onların fikrincə, pozitiv qanunun kökləri

təbii qanunla bağlıdır. Ancaq bəzi hüquqşünas filosofların rəyinə əsasən, pozitiv qanun təbii qanundan fərqli olaraq qanunverici orqan tərəfindən yaranır və burada heç bir etik normalardan söhbət gedə bilməz;

- Filosoflar təbii qanun nəzəriyyəsini iki mühüm hissəyə ayırırlar: ənənəvi nəzəriyyə və yeni nəzəriyyə. Ənənəvi nəzəriyyə üç əsas dövrü əhatə edir ki, bu, qədim yunan, qədim roma və xristian dini ilə bağlı olan dövrdür;
- Qanun istər təbii, istərsə də pozitiv olsun hüququn əsas mənbəyi hesab olunur. Filosoflar qanunu kollektiv həyatın tənzimlənməsi üçün müəyyən edilmiş məcburi qaydalar kimi təqdim edirlər.
- Xristian dinində etika və təbii qanunun nisbəti dedikdə isə qeyd etmək lazımdır ki, Xristian dinində təbii qanuna xüsusi maraq vardır; bu qanunun kökləri ilahi varlığa və etik normalara əsaslandığı üçün xiristian dünyagörüşü ilə uyğunluq təşkil edir. Məhz buna görə də din, etika və qanun arasında bağlılıq yaranır.

Əxlaq və qanunun ictimai-siyasi prinsiplərinə gəlincə isə əxlaq və qanunun nisbəti insanların şəxsiyyətində, davranışında və ictimai fəaliyyətində xüsusi dəyərlər göstrəricisidir. Bunu nəzərə alaraq aşağıdakı bəndlərə diqqəti yönəldək:

- Əxlaq və qanunun nisbəti və bunlar arasında olan əlaqələr islahedici xarakter daşıyır;
- Əxlaq və qanun tərbiyəvi təsirə malik olaraq, asayişin və nizam-intizamın qorunmasında xüsusi səlahiyyətə malikdir;
- Etik dəyərləri və qanunun tələblərini cəmiyyət üzvlərinə aşılamaq həm əqli, həm də ruhi cəhətdən sağlam və davamlı bir cəmiyyətin qurulması deməkdir;
- İnsanın nümunəvi bir fərd olaraq formalaşmasında əxlaq və qanunla yanaşı sağlam cəmiyyətin də mühüm əhəmiyyəti vardır.

Müxtəlif fərqli fikirlərin olmazına baxmayaraq ümumi nəticə bundan ibarətdir ki, hüquq və etik normaların bir-birinə olan nisbəti qanunların yaranmasında və funksiyasında əsas şərt hesab olunur. Hüquq və etik normaların nisbəti, qarşılıqlı əlaqəsi, bəzi hallarda ayrılığı və mövzu ilə bağlı digər məsələlər barədə filosofların, moralistlərin, hüquqşünas filosofların, hüquqşünasların,

siyasətçilərin, tarixçilərin, iqtisadçıların və digər alimlərin fərqli fikirlərinə baxmayaraq, ümumi məqsəd bundan ibarətdir ki, bütün hallarda etik normalar, ictima-siyasi, mədəni əlaqələr, əxlaqi-mənəvi dəyərlər mövcud olsun, bu əlaqələr etik normalarla yanaşı qanunun tələblərinə cavab versin. Çünki insan və hüquq, insan və qanun, insan və ədalət, hüquq və əxlaq, hüquq və etik normalar, əxlaq və qanun, ədalət və qanun arasında olan bağlılıq ictimai-siyasi asayişin qorunması və nümunəvi vətəndaş cəmiyyətinin formalaşması deməkdir.

**Dissertasiyanın məzmunu müxtəlif nəşrlərdə dərc edilmiş aşağıdakı tədqiqatlarda öz əksini tapmışdır:**

1. Aristotelin "Nikomaxusun əxlaqı" əsərində təbii hüquq və əxlaqın nisbəti // – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası. Dövlət İdarəçiliyi: Nəzəriyyə və Təcrübə, – 2022. № 4, (80) – s. 209-224.
2. Din və Hüquq: İslam dinində hüququn fəlsəfi təhlili // – Bakı: Bakı Universitetinin xəbərləri, sosial-siyasi elmlər seriyası "Bakı Universiteti", – 2018. № 4, – s. 65-74.
3. Din və Hüquq: İslam dinində hüquq və etikanın nisbəti //– Malazıya: Beynəlxalq İslam təfəkkürü, – 2022. № 22, – s. 24-31.
4. Etika və hüququn nisbəti: Etik və ictimai öhdəliklərdə hüquq, ədalət və vicdan prinsiplərinin hüquqi, ictimai-siyasi funksiyası // – Gəncə: AMEA Gəncə Bölməsi. Xəbərlər Məcmuəsi. "İctimai və humanitar elmlər" seriyası "Elm" nəşriyyatı, – 2023. № 1 (5), – s. 150-164.
5. Heydər Əliyev və milli dövlətçilik ideyası: milli dövlətçiliyin ictimai-siyasi, hüquqi və etik prinsipləri // – Bakı: "Elm və təhsil", – 2023. IV kitab, – s. 269-279.
6. Hüququn fəlsəfəsində hüquq və əxlaq arasında oxşar və fərqli cəhətlər // – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası. Dövlət İdarəçiliyi: Nəzəriyyə və Təcrübə, – 2019. № 1 (65), – s. 205-212.

7. Hüququn fəlsəfəsində hüquq və ədalət // – Ukrayna: “VIRTUS”, – 2020. № 46, – s. 10-14.
8. Hüququn fəlsəfi mövzuları: təbii, pozitiv, tarixi, ictimai, analitik və fəlsəfi məktəblərin ictimai-siyasi, etik və psixoloji prinsipləri // – Bakı: Bakı Universitetinin xəbərləri, sosial-siyasi elmləri seriyası, – 2020. № 1, – s. 22-34.
9. Hüquq və Etikanın nisbəti: ədalət və insaf meyarlarının fəlsəfi mənası və hüquqi funksiyası // – Bakı: AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, Elmi Əsərlər, – 2022. № 2 (39), – s. 156-166.
10. Hüquq fəlsəfəsi: hüquqi sistem və onun əxlaqi, ictimai-siyasi funksiyaları // – Bakı: Bakı Universitetinin xəbərləri, sosial-siyasi elmləri seriyası “Bakı Universiteti”, – 2021. № 2, – s. 80-90.
11. Hüququn fəlsəfəsində din və hüquq arasında olan uyğun və fərqli cəhətlər // – “Elm və təhsil perspektivləri” II Beynəlxalq gənclər konfransı, – New-York: “Slovo word”, – ( 2018), – 2018, – s. 50-53.
12. Qərb hüquqşünasların əsərlərində hüququn fəlsəfi təhlili // – “21-ci əsrdə hüquqi biliklərin artırılması məsələləri: nəzəriyyə və təcrübə birliyi” XLVIII Beynəlxalq Elmi-Praktik Konfrans, – Казан: “Elm və yaradıcılıq cəmiyyəti”, – (2017), – 2017, – s. 44-48.
13. Platon fəlsəfəsində ideal dövlət və təbii hüququn (natural law) nisbəti, etik xüsusiyyətləri, oxşar və fərqli cəhətləri // – Bakı: Bakı Dövlət Universiteti, Hüquq fakültəsi. Azərbaycan Hüquq Jurnalı, – 2022. № 1, – s. 26-40.
14. Sokratın hüquq fəlsəfəsi: siyasi fəlsəfənin əsas prinsipləri – mərifətşünaslıq (epistemologiya), fərdi və ictimai davranışlarda etik normalar(fəlsəfi, hüquqi, ictimai-siyasi təhlil) // – Bakı: AMEA Sosial Elmlər jurnalı “Elm”, – 2023. № 1, – s. 235-243.
15. Ulu Öndər Heydər Əliyevin hüquqi dövlət quruculuğunda etik prinsiplər (fəlsəfi, hüquqi, ictimai-siyasi təhlil) // AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, “Heydər Əliyevin siyasi irsi və Azərbaycançılıq”, – Bakı: “Elm və Təhsil”, – 2020. – s. 243-257.

16. Ulu Öndər Heydər Əliyev: konstitusiya, demokratiya və insan hüququnda etik dəyərlər (hüquqi, ictimai-siyasi və fəlsəfi təhlil) // AMEA Fəlsəfə və Sosiologiya İnstitutu. Azərbaycanın Strateji Hədəfləri və Cənubi Qafqazda yeni reallıqlar, – Bakı: Bilgi, – 2021. – s. 82-92.

Dissertasiyanın müdafiəsi __27__ __iyun__ 2024-ci il tarixində saat __11.$^{00}$__ AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən BED 1.33 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1073, Bakı şəhəri, Hüseyn Cavid prospekti 115, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun akt zalı, IX mərtəbə.

Dissertasiya ilə AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat __23__ __may__ 2024-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 10. 05. 2024

Kağızın formatı: A5

Həcm: işarə sayı: 95826

Tiraj: 100